24 iyul 2020-ci il
№22 (8886)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**Dövlət Proqramı məzunu nüfuzlu Nobel görüşünə dəvət olunub**
⇨səh.2

**UNEC məzunu ölkə üzrə ən yüksək nəticəni əldə edib**
⇨səh.4

**Riyaziyyatın tədrisi zamanı zəif şagirdlərlə iş**
⇨səh.7

**Şagirdlərin olimpiadalara hazırlığı yüksək səviyyədədir**
⇨səh.8

# Məktəblilərimizin növbəti uğuru




## İki olimpiadadan 2 gümüş, 7 bürünc

13-18 iyul 2020-ci il tarixlərində virtual olaraq 54-cü Mendeleyev Beynəlxalq Kimya Olimpiadası keçirilib. 27 ölkədən məktəblilərin qatıldığı bu bilik yarışında Azərbaycan şagirdləri də iştirak edib və yeni uğura imza atıblar. Belə ki, Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin 10-cu sinif şagirdi Xanım Yaqublu olimpiadanın gümüş, həmin liseyin 11-ci sinif şagirdi Əjdər Fərzullazadə isə bürünc medalına layiq görülüblər.

İyulun 21-də virtual olaraq keçirilən Kiber Fəza Riyaziyyat Olimpiadasının (Cyberspace Mathematical Competition) nəticələri də elan olunub. Nəticələrə əsasən, Azərbaycan məktəbliləri 1 gümüş, 6 bürünc medal və 1 həvəsləndirici mükafat əldə ediblər.

⇨Ardı səh.2

# Milli mətbuatımızın banisi, böyük maarifçi-ziyalı

**(Əvvəli ötən sayımızda)**

Həsən bəy Zərdabi 1872-ci ildə “Qafqaz” qəzetində Tiflis “Müqəddəs Nina” Qadın gimnaziyasını bitirən qızların siyahısında Hənifə Aslan bəy qızı Abayeva adlı yeganə müsəlman qızının adını oxuyur. Həmin qızla tanış olmaq məqsədilə təcili Tiflisə yollanır. Həsən bəy qızı tapır, bəyənir və ona evlənmək təklif edir. Şimali Qafqazda yaşayan türk xalqlarından olan balkar qızı Hənifə xanım onun xoşniyyətli təklifini qəbul edir. Məktəbə dəvət olunan molla tərəfindən kəbin kəsilir. Bununla da Həsən bəy müsəlmanlar arasında ilk olaraq valideynlərin razılığı olmadan gənclərin müstəqil evlənmə, mətbuat vasitəsilə tanış olub ailə qurmaq ənənəsinin əsasını qoyur...

Təhsilli gənc xanımla Bakıya dönən Həsən bəy öz mənzilində 2 kimsəsiz və yoxsul uşağın tərbiyəsi və məktəbə hazırlığı işini Hənifə xanıma həvalə edir. Tezliklə uşaqların sayı 10-a çatdırılır. Lakin ianə verənlərin sayının get-gedə azalması səbəbindən “Cəmiyyəti-xeyriyyə” 2 ildən sonra qapanmaq zorunda qalır...

Həsən bəy gimnaziyada təhsil alan yoxsul uşaqların təhsilinə kömək məqsədilə yollar arayır və nəhayət, onlardan birini tapır... Hələ Tiflisdə işlədiyi zaman “Rusiyada iki böyük türkçüdən biri” (Ziya Göyalp) olan Mirzə Fətəli Axundzadə komediyalar kitabından birini Həsən bəyə hədiyyə etmişdi. Həsən bəyin rəhbərlik və təşkilatçılığı ilə “Hacı Qara” əsərini 1873-cü ildə gimnaziyanın salonunda öz şagirdləri Nəcəf bəy Vəzirov və Əsgərağa Goraninin köməyi ilə (hər iki gimnazist sonralar Moskva Kənd Təsərrüfatı Akademiyasını bitirmişdi) tamaşaya qoyulur. Tamaşadan toplanan vəsait yoxsul şagirdlərin təhsil xərclərinə yönəldilir. Bununla da, Həsən bəy Zərdabi Azərbaycan mədəniyyəti tarixinin şanlı bir səhifəsinə - ilk peşəkar milli Azərbaycan teatrının yaradılmasına öz əbədi imzasını atmış olur.

Lakin müsəlmanların teatra həvəslə gəlməmələri Həsən bəyi başqa vasitələrlə yoxsul və kimsəsizlərin təhsilinə yardım üçün vəsait axtarışına məcbur edir. Nəticədə ana dilində mətbuat orqanı - qəzet açmaq, onun vasitəsi ilə maarifçiliyi yaymaq ideyası baş qaldırır. Həsən bəy Zərdabi özünün “Həyat” qəzetində çap olunmuş “Rusiyada əvvəlinci türk qəzetəsi” adlı məqaləsində “Əkinçi” qəzetinin yaranması səbəblərini belə izah edirdi:

⇨Ardı səh.6

# Mingəçevir Dövlət Universiteti: modernləşməyə doğru

## 2019/2020-ci tədris ili MDU-da uğurla başa çatıb

*Davamlı dövlət dəstəyi*

Başa çatan tədris ili milli ali təhsilimizin inkişafında yeni bir mərhələ olmaqla ilk növbədə dördüncü sənaye inqilabının başlanması, rəqəmsal texnologiyaların sürətli inkişafı və davam etməkdə olan qlobal pandemiya ilə şərtlənən müasir reallıqlar və yeni çağırışlarla xarakterizə oluna bilər. Təbii ki, əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla reallaşdırılan və yeni dövrün tələblərinə uyğun davamlı inkişaf etdirilən dövlət siyasətinin məzmununda ali təhsilin prioritet əhəmiyyət daşıması xüsusi vurğulanmalıdır.

Ölkə başçısının Bakı Dövlət Universitetinin 100 illik yubiley mərasimində proqram xarakterli tarixi çıxış etməsi və bütün ali təhsil müəssisələri qarşısında müvafiq istiqamətlər üzrə konkret vəzifələr qoyması cari tədris ilində ali təhsilimizin ən mühüm hadisəsi kimi qiymətləndirilməlidir. Həmin çıxışda ölkədə yüksək ixtisaslı kadr hazırlığının Azərbaycanın potensial sosial-iqtisadi inkişaf perspektivləri, milli-mənəvi dəyərlər və vətənpərvərlik tərbiyəsi kimi mühüm amillər nəzərə alınmaqla müasirləşdirilməsi və təkmilləşdirilməsinin vacibliyi bəyan edilmişdir.

Bütün dünyanı bürüyən COVID-19 infeksiyası ilə qlobal mübarizə getdiyi şəraitdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi və ali təhsil müəssisələri tərəfindən birgə həyata keçirilən tədbirlər, eləcə də müvafiq normativ-hüquqi aktlara edilən müvəqqəti dəyişikliklər ali təhsildə davamlılığın təmin olunmasına və tədris ilinin uğurla başa çatdırılmasına imkan vermişdir. Məsafədən təhsilin tətbiqinə başlanılması ali təhsilin tədris, elmi tədqiqat, idarəetmə, beynəlxalq əməkdaşlıq və digər komponentləri üzrə fəaliyyətin məzmununda yeni xüsusiyyətlərin yaranmasını şərtləndirmişdir.

⇨Ardı səh.5




# “Azərbaycan qəhrəmanı”

## Virtual düşərgəyə start verilib

Səh.7

## Çin Xalq Respublikasında təhsil almaq hüququ qazanmış şəxslərin siyahısı təsdiqlənib

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında uğurlu əməkdaşlığın nəticəsi olaraq, 24 nəfər Azərbaycan Respublikası vətəndaşı 2020-2021-ci tədris ili üzrə Çin Xalq Respublikasının nüfuzlu universitetlərində təhsil almaq imkanı qazanıb.

Müvafiq sazişə əsasən, seçim barədə Çin Xalq Respublikası tərəfindən verilən yekun qərar nəticəsində 24 nəfər bu ölkənin “Peking University”, “China University of Petrolium-Beijing”, “University of Science and Technology Beijing”, “Yanshan University”, “Xiamen University”, “Tsingua University” kimi ali təhsil müəssisələrində neft mühəndisliyi, proqramlaşdırma və kompüter elmləri, beynəlxalq münasibətlər, hüquq, iqtisadiyyat və idarəetmə ixtisasları üzrə bakalavriat (4 nəfər), magistratura (18 nəfər) və doktorantura (2 nəfər) səviyyələri üzrə təhsil almaq hüququ qazanıb.

Müvafiq təqaüd proqramı barədə elan ötən ilin 28 noyabr tarixində verilib.

## “Virtual BİR mən” layihəsi üzrə ilk vebinar

Təhsil Nazirliyinin “Bir” Tələbə-Könüllü proqramının təşkilatçılığı ilə “Virtual BİR mən” adlı layihəyə start verilib. Layihənin əsas məqsədi tələbə-könüllülərin asudə vaxtının səmərəli dəyərləndirməsinə şərait yaradılması, bilik, bacarıqlarının artırılması və şəxsi inkişafının təmin olunmasıdır.

“Virtual BİR mən” layihəsinin ilk vebinarı Ümumdünya Səhiyyə Təşkilatının (World Health Organization Azerbaijan) ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi, BMT könüllüsü Fənarə Bünyadzadənin iştirakı ilə “Beynəlxalq könüllülük” mövzusunda keçirilib. 100-dən çox tələbə-könüllünün iştirak etdiyi vebinarda könüllülərin beynəlxalq arenada təmsilçiliyi, BMT könüllüləri haqqında məlumat verilib və tələbə-könüllülərin sualları cavablandırılıb.

Onlayn layihə çərçivəsində tələbə-könüllülər üçün peşəkar təlimçi və müxtəlif qurumların nümayəndələrinin iştirakı ilə təlim, vebinar və görüşlər keçiriləcək.

Qeyd edək ki, Təhsil Nazirliyi “Bir” Tələbə-Könüllü proqramı milli könüllü platforması kimi 24.000-dən çox tələbə-könüllü üzvə malikdir. Tələbələrin şəxsi inkişafı və asudə vaxtını səmərəli dəyərləndirilməsi üçün 6 istiqamətdə fəaliyyət göstərən proqram tərəfindən indiyədək 550-dən çox yerli və beynəlxalq tədbirə könüllü və təşkilati dəstək verilib. BİR könüllü olmaq istəyən tələbələr *www.konullu.edu.az* saytı vasitəsilə qeydiyyatdan keçə və proqrama qoşula bilərlər.

# RƏSMİ XRONİKA



■ Prezident İlham Əliyev iyulun 18-də Belçikanın Kralı Əlahəzrət Filipə bu ölkənin milli bayramı münasibətilə təbrik məktubu ünvanlayıb.

■ Dövlət başçısı İlham Əliyev iyulun 20-də Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

■ Prezident İlham Əliyev iyulun 20-də F.Ə.Qədirova və "Əməkdar elm xadimi" fəxri adının verilməsi, T.C.Cəfərovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncamlar imzalayıb.

■ Dövlət başçısı İlham Əliyev iyulun 20-də "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 151-VIQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

■ Prezident İlham Əliyev iyulun 20-də A.Q.Kərimovun Azərbaycan Respublikasının YUNESKO yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılması, Azərbaycan Respublikası Mədəniyyət nazirinin birinci müavini təyin edilməsi, Azərbaycan Respublikası Mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyətinin verilməsi haqqında sərəncamlar imzalayıb.

■ Dövlət başçısı İlham Əliyev iyulun 20-də Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

■ Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İyulun 21-də Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak ediblər.

■ Dövlət başçısı İlham Əliyev iyulun 21-də Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı il 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

■ İyulun 22-də BMT-nin Baş katibi Antonio Quterreş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

■ Prezident İlham Əliyev iyulun 22-də "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

■ Dövlət başçısı İlham Əliyev iyulun 22-də Kütləvi informasiya vasitələri əməkdaşlarının "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi, Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinin əməkdaşlarına fəxri adların verilməsi, Azərbaycan Respublikasının kütləvi informasiya vasitələri nümayəndələrinin təltif edilməsi, Kütləvi informasiya vasitələrinin nümayəndələrinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi, Azərbaycan Respublikasında mətbuata əlavə maliyyə yardımının ayrılması haqqında sərəncamlar imzalayıb.

■ Prezident İlham Əliyev iyulun 22-də Qəbələ rayonunun Əmirvan-Vəndam avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

■ İyulun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə keçirilib.

## "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində Peşə Tədris Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 19 aprel tarixli 68 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində Peşə Tədris Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 19 aprel tarixli 68 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 446) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında və 1-ci hissəsində "Tədris" sözü "Təhsil" sözü ilə əvəz edilsin.

**2.** 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə Peşə Təhsil Mərkəzinin fəaliyyətə başlaması üçün müvafiq tədbirlər görsün.".

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 18 iyul 2020-ci il*

## Latviyada təhsil təqaüd proqramının nəticələri açıqlanıb

Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında təhsil sahəsində uğurlu əməkdaşlığın nəticəsi olaraq, 2020-2021-ci tədris ili Latviya Hökumətlərarası Təqaüd Proqramı üçün qarşı tərəfdən keçirilən müsabiqə nəticəsində 8 azərbaycanlı gənc bu ölkənin təqaüdünə layiq görülüb.

Qeyd edək ki, Latviya hökumətinin bu təqaüdünü qazanan digər 27 ölkə üzrə ən çox təqaüd əldə etmiş 10 ölkə arasında Azərbaycan 8-ci yerdədir.

Seçim barədə Latviya tərəfindən verilən yekun qərar nəticəsində saziş üzrə Azərbaycan vətəndaşları Latviyanın "Riga Technical University", "University of Latvia", "Vidzeme University of Applied Sciences", "Riga Stradins University" və "Turiba University" ali təhsil müəssisələrində müxtəlif ixtisaslar və təhsil səviyyələri üzrə təhsilini davam etdirmək hüququ qazanıb.

Müvafiq təqaüd proqramı barədə elan cari ilin 14 fevral tarixində verilib.

| Ölkə | |
|---|---|
| Ukrayna | 16 |
| Özbəkistan | 11 |
| Finlandiya | 10 |
| Almaniya | 9 |
| İsrail | 9 |
| İtaliya | 9 |
| İsveç | 8 |
| Azərbaycan | 8 |
| Qazaxıstan | 5 |
| ABŞ | 4 |

## Dövlət Proqramı məzunu nüfuzlu Nobel görüşünə dəvət olunub

### Rüstəm Cəmilov 373 gənc iqtisadçıdan biridir

**Oruc MUSTAFAYEV**

Böyük Britaniyanın London Biznes Məktəbinin (LBS) doktorantı Rüstəm Cəmilov Almaniyanın Lindau şəhərində keçiriləcək Nobel mükafatı laureatlarının iqtisad elmləri üzrə 7-ci görüşünə dəvət olunub.

İqtisad elmləri üzrə üç ildə bir dəfə keçirilən Lindau toplantısı öz sahəsində mövcud iqtisadi məsələləri müzakirə etmək üçün ən parlaq gənc iqtisadçıları birləşdirir və elmi mübadilə üçün beynəlxalq forum kimi çıxış edir.

London Biznes Məktəbinin saytında yer alan məlumata əsasən, Rüstəm Cəmilov dünyanın hər yerindən nüfuzlu toplantıda iştirak etməyə dəvət olunmuş cəmi 373 gənc iqtisadçıdan biridir.

Gənc tədqiqatçı Böyük Maliyyə Böhranları dövründə iri maliyyə təsisatlarının mükəmməl rəqabət və bazar gücünün rolunu öyrənməklə məşğuldur. Onun tədqiqatları iqtisadi böhranların yaranmasında və güclənməsində maliyyə sektorunun roluna həsr olunub. Gənc alim makroiqtisadiyyat, maliyyə və bank işi, kibertəhlükəsizlik və məkan iqtisadiyyatı ilə də maraqlanır.

Lindau toplantısına dəvət almasını R.Cəmilov belə şərh edib: "Lindaunun iqtisadi elmlər üzrə iclaslarına dəvət almağım məni bu peşənin ən böyük zəkalarından bəziləri ilə bir sıraya qoyardı".

Gənc tədqiqatçı hesab edir ki, belə bir şərəfi yaşamaq həyatda bir dəfə olur: "Mənim onlardan soruşmaq istədiyim çox suallarım var və onların bizim nəslin bəzi aktual sosial-iqtisadi məsələlərinə dair fikirlərini eşitmək imkanının çatmamasını gözləyə bilmərəm".

Məlumat üçün bildirək ki, R.Cəmilov "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində London İqtisadiyyat və Politologiya Məktəbində magistr təhsili alıb. 2011-2013-cü illərdə Azərbaycan Respublikası Mərkəzi Bankında iqtisadçı və Azərbaycan Dövlət İqtisad Universitetində müəllim işləyib. O, həmçinin Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Milli makroiqtisadi məsləhətçisi olub. R.Cəmilov Mərkəzi Avropa Universitetində biznes inzibatçılığı və Bokkoni Universitetində Beynəlxalq İqtisadiyyat və idarəetmə sahəsində incəsənət üzrə bakalavr dərəcəsinə malikdir. Onun elm sahəsində maraq dairəsi beynəlxalq makroiqtisadiyyat, pul-kredit nəzəriyyəsi və siyasəti, bank işi və maliyyə, iqtisadi inteqrasiyadır.

Qürurverici haldır ki, R.Cəmilov 2019-2020-ci tədris ilində AQR Aktiv İdarəetmə İnstitutunun London Biznes Məktəbinin aktivlərin idarə edilməsi sahəsində geniş tədqiqatlar aparan istedadlı doktorantları üçün nəzərdə tutulmuş Təqaüd mükafatını qazanıb. Bu mükafat intellektual cəsarət, akademik mükəmməllik və yenilik nümayiş etdirən doktorantlara təqdim olunur.

Qeyd edək ki, iqtisadi elmlər üzrə 7-ci Lindau toplantısı və Nobel mükafatı laureatlarının disiplinar 70-ci görüşü COVID-19-a görə 2021-ci ilə kimi təxirə salınıb.

## Məktəblilərimizin növbəti uğuru

### İki olimpiadadan 2 gümüş, 7 bürünc

⇦ Əvvəli səh.1





Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin 11-ci sinif şagirdi Abbas Məmmədov gümüş, həmin liseyin 11-ci sinif şagirdləri Murad Ağazadə və Fərid İsmayılov, 9-cu sinif şagirdi Toğrul Abbasov, Bakı şəhəri 220 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Yusif Qasımov, Bakı şəhəri 257 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Fidan Qarayeva və Humanitar Fənlər təmayüllü məktəb-liseyin 10-cu sinif şagirdi Aysun Bayramlı bürünc medal qazanıblar. Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin 9-cu sinif şagirdi Amin Cəfərzadə isə həvəsləndirici mükafata layiq görülüb.

Qeyd edək ki, 12-14 iyul 2020-ci il tarixlərində virtual olaraq Kiber Fəza Riyaziyyat Olimpiadası keçirilib. İki gün keçirilən olimpiadada iştirakçılara 4 məsələ təqdim edilib və onların həlli üçün 5 saat vaxt verilib. Beynəlxalq Riyaziyyat Olimpiadasında (İMO) iştirakı nəzərdə tutulan ölkələrin milli komandaları daxil olmaqla, bilik yarışına ümumilikdə 75 ölkədən 555 məktəbli qatılıb.

# "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 104-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2013-cü il 8 iyul tarixli 939 nömrəli, "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2014-cü il 26 dekabr tarixli 432 nömrəli, "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2015-ci il 21 dekabr tarixli 710 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 4 avqust tarixli 1007 nömrəli və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 27 may tarixli 711 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 iyul tarixli 1088 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə

## Azərbaycan Respublikasının Nazirlər Kabinetinin sərəncamı

"Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 104-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2013-cü il 8 iyul tarixli 939 nömrəli, "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2014-cü il 26 dekabr tarixli 432 nömrəli, "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2015-ci il 21 dekabr tarixli 710 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 4 avqust tarixli 1007 nömrəli və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 27 may tarixli 711 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 iyul tarixli 1088 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə:

**1.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 104-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2013-cü il 8 iyul tarixli 939 nömrəli, "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2014-cü il 26 dekabr tarixli 432 nömrəli, "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2015-ci il 21 dekabr tarixli 710 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 4 avqust tarixli 1007 nömrəli və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 27 may tarixli 711 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 iyul tarixli 1088 nömrəli Fərmanına (bundan sonra - Fərman) uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

**2.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla:

2.1. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 17.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması xidmətləri ilə əlaqədar digər xidmətlərin siyahısını və göstərilən xidmətlərə görə ödəniləcək haqların məbləği ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.2. həmin Qanunun 44.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, Azərbaycan Respublikasında xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası), xarici ölkələrdə verilən təhsil haqqında sənədlərin tanınması xidmətləri ilə əlaqədar digər xidmətlərin siyahısını və göstərilən xidmətlərə görə ödəniləcək haqların məbləği ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.3. həmin Qanunun 45.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyinin işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə həmin Nazirliyin hesabına köçürülən vəsaitdən istifadə qaydasının layihəsini bir ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

**3.** Razılaşdırma prosesinin iştirakçıları (əsas və birgə icraçılar) bu Sərəncamın icrası ilə bağlı normayaratma vəzifələrindən irəli gələn məsələlər üzrə (layihə və təkliflərin baxılması, hazırlanması, razılaşdırılması, təqdim edilməsi və s.) müvafiq tədbirlər görüb icra vəziyyəti tələb etdikdə, məlumatları icra üçün ayrılmış müddətin birinci yarısı başa çatanadək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər. Eyni zamanda, hüquqi aktların layihələrini əsas icraçıya təqdim edən subyektlər "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun müvafiq olaraq 48.2-ci, 48.3-cü və 48.5-ci maddələrinin tələblərinə əməl olunmasını təmin etsinlər.

**4.** Mərkəzi icra hakimiyyəti orqanları üç aydan gec olmayaraq, Fərmanın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

**5.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Fərmana uyğunlaşdırılmasını təmin edib, bu barədə dörd ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**6.** Bu Sərəncamın 1-ci, 3-cü, 4-cü və 5-ci hissələrinin icrası Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Hüquq və qanunvericilik şöbəsinə, 2-ci hissəsinin icrası Humanitar məsələlər şöbəsinə həvalə edilsin.

**7.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 20 iyul 2020-ci il*

# "Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 220 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 aprel tarixli 996 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 564; 2012, № 1, maddə 30, № 11, maddə 1208; 2013, № 9, maddə 1133; 2014, № 2, maddə 201; 2015, № 4, maddə 466, № 8, maddə 964; 2016, № 5, maddə 955, № 12, maddə 2239; 2017, № 4, maddə 642; 2018, № 3, maddə 590, № 11, maddə 2431; 2019, № 10, maddə 1675; 2020, № 3, maddə 342) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3-cü hissədə "bakalavriat və magistratura" sözləri "bakalavriat, magistratura, doktorantura (dissertantlıq istisna olmaqla)" sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasında ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat və magistratura, əsas (baza ali) tibb təhsili və rezidentura səviyyələrində, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kadr hazırlığının maliyyələşdirilməsi Qaydaları" üzrə:

2.1. adında və 1.1-ci bəndində "bakalavriat və magistratura" sözləri "bakalavriat, magistratura, doktorantura (dissertantlıq istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

2.2. 1.3-cü bəndə "həm magistratura" sözlərindən sonra ", doktorantura (dissertantlıq istisna olmaqla)" sözləri əlavə edilsin;

2.3. 2-ci hissə üzrə:

2.3.1. ikinci abzasa "ixtisaslar" sözündən sonra "və doktorantura (dissertantlıq istisna olmaqla) səviyyəsində elm sahələri" sözləri əlavə edilsin;

2.3.2. dördüncü abzasda "xərclər" sözü "illik təhsil xərcləri" sözləri ilə əvəz edilsin;

2.4. 3.1-ci bənddə "xərclərin" sözü "illik təhsil xərclərinin" sözləri ilə əvəz edilsin və həmin bəndə "ixtisasların" sözündən sonra "və doktorantura (dissertantlıq istisna olmaqla) səviyyəsində elm sahələrinin" sözləri əlavə edilsin;

2.5. 3.2-ci bənddə "təhsil xərclərinin" sözləri "illik təhsil xərclərinin" sözləri ilə əvəz edilsin;

2.6. 4.1-ci bənd üzrə:

2.6.1. birinci cümlədə "Hər il" sözləri "Hər tədris ili" sözləri ilə, "aidiyyəti sahə nazirlikləri" sözləri ", ali təhsil müəssisələrinin doktorantura (dissertantlıq istisna olmaqla) səviyyəsi üzrə isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin aidiyyəti dövlət orqanları (qurumları)" sözləri ilə əvəz edilsin;

2.6.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Hər il noyabrın 1-dək Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və aidiyyəti dövlət orqanları (qurumları) ilə növbəti tədris ili üçün razılaşdırılmış təklifləri Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.";

2.7. 4.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.2. Azərbaycan Respublikasının Nazirlər Kabineti dövlət sifarişinə uyğun olaraq, aidiyyəti dövlət orqanlarının (qurumlarının) təqdim etdikləri təkliflər əsasında hər il aprelin 1-dək növbəti tədris ili üçün müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinin bakalavriat, magistratura, doktorantura (dissertantlıq istisna olmaqla), əsas (baza ali) tibb təhsili və rezidentura səviyyələrinə tələbə qəbulunu müəyyən edir.";

2.8. 4.3-cü bənddə "hər tədris ili üzrə təkliflərini hər il fevralın 1-dək" sözləri "hər il oktyabrın 1-dək növbəti tədris ili üzrə təkliflərini" sözləri ilə əvəz edilsin;

2.9. 4.4-cü, 4.5-ci və 4.6-cı bəndlərdə ismin müvafiq hallarında "abituriyentlər" sözü ismin müvafiq hallarında "şəxslər" sözü ilə əvəz edilsin;

2.10. 5.2-ci və 5.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"5.2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə bakalavriat və magistratura, əsas (baza ali) tibb təhsili və rezidentura səviyyələri üzrə ali təhsil müəssisələri və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası arasında hər il sentyabrın 15-dək, Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə doktorantura (dissertantlıq istisna olmaqla) səviyyəsi üzrə ali təhsil müəssisələri arasında isə hər il oktyabrın 15-dək bu Qaydaların 1 nömrəli əlavəsinə uyğun olaraq müqavilə imzalanır.

5.3. Bakalavriat və magistratura, əsas (baza ali) tibb təhsili və rezidentura səviyyələri üzrə ali təhsil müəssisəsi və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası ilə dövlət sifarişi əsasında təhsil alacaq təhsilalan arasında hər il sentyabrın 15-dək, doktorantura (dissertantlıq istisna olmaqla) səviyyəsi üzrə ali təhsil müəssisəsi ilə dövlət sifarişi əsasında təhsil alacaq təhsilalan arasında isə hər il oktyabrın 15-dək bu Qaydaların 2 nömrəli əlavəsinə uyğun olaraq müqavilə imzalanır.";

2.11. 5.4-cü bənddə "təhsil proqramlarına" sözləri "normativ təhsil müddətinə" sözləri ilə, "bakalavriat və əsas (baza ali) tibb təhsili və ya magistratura və rezidentura" sözləri "bakalavriat, əsas (baza ali) tibb təhsili, magistratura, rezidentura və doktorantura (dissertantlıq istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

2.12. həmin Qaydalara 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə ali təhsil müəssisəsi və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası arasında Nümunəvi Çərçivə Müqaviləsi" üzrə:

2.12.1. yuxarı sağ küncündə "bakalavriat və magistratura" sözləri "bakalavriat, magistratura, doktorantura (dissertantlıq istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

2.12.2. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Bakalavriat, magistratura, əsas (baza ali) tibb təhsili və rezidentura səviyyələrinə 2010/2011-ci tədris ilindən, doktorantura (dissertantlıq istisna olmaqla) səviyyəsinə 2020-ci ildən başlayaraq qəbul olunanlara münasibətdə hər il dövlət sifarişinin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı əsasında müəyyən olunur.";

2.12.3. 2.1-ci bənddə "abituriyentin" sözü "şəxsin" sözü ilə və ismin müvafiq hallarında "təhsil xərcləri" sözləri ismin müvafiq hallarında "illik təhsil xərcləri" sözləri ilə əvəz edilsin;

2.12.4. 2.3.1-ci yarımbənddən "Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən hər bir təhsilalana düşən təhsil xərclərinin miqdarı daxilində" sözləri çıxarılsın;

2.12.5. 2.3.4-cü yarımbənddə və 3.1-ci bənddə "təhsil xərclərinin" sözləri "illik təhsil xərclərinin" sözləri ilə əvəz edilsin;

2.13. həmin Qaydalara 2 nömrəli əlavə - "Ali təhsil müəssisəsi və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası ilə dövlət sifarişi ilə təhsil alacaq təhsilalan arasında Nümunəvi Fərdi Müqavilə" üzrə:

2.13.1. yuxarı sağ küncündə "bakalavriat və magistratura" sözləri "bakalavriat, magistratura, doktorantura (dissertantlıq istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

2.13.2. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Bakalavriat, magistratura, əsas (baza ali) tibb təhsili və rezidentura səviyyələrinə 2010/2011-ci tədris ilindən, doktorantura (dissertantlıq istisna olmaqla) səviyyəsinə 2020-ci ildən başlayaraq qəbul olunanlara münasibətdə hər il dövlət sifarişinin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı əsasında müəyyən olunur.";

2.13.3. 2.1-ci və 3.1-ci bəndlərdə "təhsil xərclərinin" sözləri "illik təhsil xərclərinin" sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 17 iyul 2020-ci il*

**Tanıtım:** Gülay Rauf qızı Məmmədova 24 sentyabr 1994-cü ildə Gəncə şəhərində anadan olub. 2000-2011-ci illərdə Bakı Avropa Liseyində təhsil alıb. Orta məktəb illərində bir sıra tədbir və fənn olimpiadalarında iştirak edib. 10-11-ci siniflərdə İNEPO-Avrasiya Ətraf Mühitin Mühafizəsi üzrə IV-V layihə olimpiadalarında iştirak edib və 2 dəfə qızıl medala layiq görülüb. 2011-ci ildə həmin məktəbi medal və fərqlənmə attestatı ilə bitirib. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində keçirilən müsabiqə nəticəsində bakalavr təhsilini xaricdə davam etmək imkanı qazanıb. İsveçrənin Glion Universitetində biznesin idarəolunması, turizm və otelçilik ixtisası üzrə təhsilini davam etdirib və 2015-ci ildə bu ali məktəbi fərqlənmə diplomu ilə bitirib. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Böyük Britaniyanın Surrey Universitetində "İnsan resurslarının idarə olunması" ixtisası üzrə magistr təhsili alaraq, 2016-cı ildə həmin ali məktəbi uğurla bitirib. Xaricdə bakalavr və magistr təhsili illərində də müvafiq nailiyyətlər əldə edib. İngiltərədə təhsil aldığı dövrdə "Azərbaycanda qonaqpərvərlik" mövzusunda məruzəsi "BBC Radio 4" layihəsinə qəbul olunub və bu mövzu ilə çıxış edib. Bu məruzə Britaniya Kitabxanasının onlayn arxivində saxlanılır. Surrey Universitetindən məzun olduqdan sonra vətənə qayıdaraq təhsil sahəsində çalışıb. 2019-cu ilin iyul ayından etibarən ADA Universitetinin İctimai və Beynəlxalq Münasibətlər İnstitutunda karyera məsləhətçisi kimi fəaliyyət göstərib.



# "Ali təhsil sistemi hər an yeniliklərə hazır olmalıdır"

**Oruc MUSTAFAYEV**

## *Gülay Məmmədova:* "Tədrisdə canlı ünsiyyət və müzakirələr əvəzolunmazdır"

Qloballaşan dünya reallıqları ali təhsil sistemində bir sıra yeni prioritetlərin, inkişaf trendlərinin gündəmə gəlməsi ilə səciyyələnir. Yeni prioritetlərdən bəhs edərkən söhbət universitetlərin sürətlə dəyişən reallıqlara adekvat cavab verməsindən, yüksək rəqabətli, peşəkar, hazırlıqlı tədqiqatçıların hazırlanması sahəsində fəaliyyətin gücləndirilməsindən gedir. Ali təhsildə rəqabətliliyin təmin olunması isə, ilk növbədə, universitetlərdə aparılan elmi tədqiqatların səviyyəsindən, yeni akademik mühitin yaradılmasından, gənc tədqiqatçılar nəslinin yetişdirilməsindən bilavasitə asılıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2018-ci ildə təsdiq olunmuş "2019-2023-cü illər üçün Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" da məhz universitetlər üçün yeni tədqiqatçıların hazırlanmasını nəzərdə tutur.

Bu proqram çərçivəsində artıq dünyanın aparıcı universitetlərində təhsil alacaq tələbələrin bir qrupu müvafiq meyarlar əsasında seçilərək müəyyən olunub. Onlardan biri də "2019-2023-cü illər üçün Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Belçikanın Ghent Universitetində "Təhsilin idarə olunması" ixtisası üzrə doktorantura təhsili almaq imkanı qazanmış Gülay Məmmədovadır.

*- Dövlət Proqramına qəbul olunmuz. Proses sizin üçün necə keçdi? Təhsil Nazirliyinin bu layihənin reallaşmasında töhfəsini necə dəyərləndirirsiniz?*

- Bir Dövlət Proqramı namizədi kimi deyə bilərəm ki, Təhsil Nazirliyinin bu prosesdə rolu olduqca müsbət olaraq müşahidə olunmuşdur. Elektron müraciət prosesindən başlayaraq tam nəticələrin elan edilməsi müddətinəcən hər şey olduqca aydın və şəffaf idi. Həmçinin də, müvafiq suallar Təhsil Nazirliyinin əməkdaşları tərəfindən vaxtı-vaxtında və aydın şəkildə cavablandırılmışdır.

*- Ölkəmiz üçün yüksək hazırlıqlı mütəxəssislərin hazırlanmasında Proqramın əhəmiyyətini necə qiymətləndirirsiniz?*

- Qeyd etmək istərdim ki, üçüncü dəfədir ki, Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almaq imkanı qazanıram və bu, mənim üçün çox böyük uğurdur. Hesab edirəm ki, bu yolda atılan hər bir addım insandan yetərincə vaxt, səbr və əziyyət tələb edir. Və sonda müsbət nəticəyə nail olduqda bir tələbə kimi böyük bir qürur hissi keçirirəm.

Hər bir Azərbaycan gəncini bu proqramdan yararlanmağa çağırıram. Bu proqramın mövcud olması, nəinki xaricdə təhsil arzusunu dövlət hesabına həyata keçirmək imkanını qazanmaq, həmçinin də Azərbaycanın çoxəsrlik mədəniyyətini və milli-mənəvi dəyərlərini beynəlxalq miqyasda tanıtmaq üçün böyük bir şansdır.

*- Doktorantura mövzunuz hansı məsələləri nəzərdə tutur?*

- Mənim növbəti Dövlət Proqramı çərçivəsində doktorantura mövzum təhsil sistemindəki innovativ islahatların qiymətləndirilməsi ilə bağlıdır. Əsas araşdırma istiqamətim isə Azərbaycan Respublikasında peşə təhsili və təlimidir. Bildiyiniz kimi, son illərdə təhsil sistemində ardıcıl olaraq məqsədyönlü islahatlar aparılır. Belə ki, Azərbaycan Respublikasının Peşə Təhsili və Təliminin inkişafına dair Strateji Yol Xəritəsinə əsasən, hüquqi bazanın inkişaf etdirilməsi, peşəkar kadr hazırlığı, daxili keyfiyyət təminatı və təhsilin məzmununun inkişafını peşə təhsil və təlimi sistemində innovativ islahatların tətbiqi ilə əldə etmək olar. Həmin hədəflərin necə qiymətləndirilə və nə dərəcədə qarşılana biləcəyini öyrənmək daha böyük məqsədlərin qarşılanması və inkişafa təkan verilməsi üçün mühümdür.

*- Ölkəmizdə peşə təhsilinə diqqət son illər artıb. Sizcə, bu sahənin inkişaf etdirilməsi hansı zərurətdən irəli gəlir və Azərbaycanda bu sahədə həyata keçirilən islahatlara münasibətiniz.*

- Qeyd edim ki, peşə təhsili və təliminin ümumi iqtisadi inkişafdakı əhəmiyyətini nəzərə alaraq, bir çox dünya ölkələri hazırda bu sahənin inkişafı üzrə proqramlar hazırlayır və həyata keçirir.

Azərbaycan Respublikasının Peşə Təhsili və Təlimi (VET) sistemi məzmununda bəzi məsələlərin həlli üçün strategiya və proqramlar irəli sürülüb. Belə ki, 2016-cı ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin nəzdində Peşə Təhsil Agentliyi peşə təhsil sisteminin səmərəliliyini artırmaq və yerli əmək bazarını istedadlı namizədlərlə təmin etmək məqsədi ilə yaradılıb. Statistik məlumatlara əsasən, məzunların 11%-dən azı Azərbaycanda orta ixtisas təhsili müəssisələrinə qəbul olunur, lakin inkişaf etməkdə olan ölkələrdə bu göstərici 40-60%-ə bərabərdir.

Məsələn, İsveçrənin Peşə Təhsili və Təlimi sistemi (apprenticeship) nümunəsinə nəzər saldıqda müəyyən etmək olar ki, sözügedən istiqamətin seçimi İsveçrə gəncləri arasında çox məşhurdur. İsveçrədə müxtəlif sahələrdən olan kiçik və böyük müəssisələr 15-19 yaş arası gənclər üçün "apprenticeship" təlimlərini təşkil edirlər. Gənclər iqtisadiyyat, maşın istehsalatı, əczaçılıq, eyni zamanda banklar, pərakəndə mağazalar, xəstəxanalar, uşaq bağçaları və sığorta agentliklərinə qədər olan 230-dan çox peşəni seçməkdə sərbəstdirlər. Gənc yaş qrupunun təxminən 70%-i bu istiqaməti seçir. Müvafiq peşədə iş təcrübəsi aldıqdan sonra gənclər ya əmək bazarına, ya da ali təhsil sisteminə keçmək hüququna malikdirlər. İsveçrə təhsilinin qanunvericiliyinə əsasən əvvəlcə iş təcrübəsi almış şəxs daha sonra universitet təhsili ilə davam edə bilər. Hökumət tərəfindən bu istiqamətin doğru bir istiqamət olduğu dəstəklənir, çünki bu, gənclər arasında işsizliyin qarşısını almaqla, həm də sosial sabitliyə kömək edir. Bu təşəbbüsü dəstəkləyən təkcə hökumət deyil, həm də özəl sektordur.

Azərbaycan Respublikasının Peşə Təhsil və Təliminin inkişafına dair Strateji Yol Xəritəsinə əsasən, hüquqi bazanın inkişaf etdirilməsi, peşəkar kadr hazırlığı, daxili keyfiyyət təminatı və təhsilin məzmununun yaxşılaşdırılmasını peşə təhsil və təlimi sistemində innovativ islahatların tətbiqi ilə əldə etmək olar. Belə ki, doktorantura mövzu seçimim də bu araşdırmalardan irəli gəlmişdir.

*- Necə bilirsiniz, doktorant kimi apardığınız tədqiqatların tərəfdaş ali təhsil müəssisəsi üçün nə kimi əhəmiyyəti olacaq?*

- Araşdırmam təhsil sistemindəki innovativ islahatların qiymətləndirilməsi ilə bağlıdır və ADA Universiteti innovativ meylləri və beynəlxalq standartları diqqətlə izlədiyinə görə, töhfəmin önəmli olacağına inanıram. Xüsusilə də tədqiqat mövzumun hazırda universitetdə fəaliyyət göstərən Təhsilin İdarəolunması və həmçinin də İctimai və Beynəlxalq Münasibətlər İnstitutları üçün də əhəmiyyətli olacağını düşünürəm.

*- Növbəti proqram, adından da göründüyü kimi, ali təhsil sistemimizin beynəlxalq rəqabətliliyinin gücləndirilməsini nəzərdə tutur. Sizcə, yüksək rəqabət qabiliyyətlilik dedikdə nə başa düşülməlidir, universitet nə zaman rəqabətqabiliyyətli olur?*

- Mənim fikrimcə, universitetin rəqabətqabiliyyətliliyi onun rəqabətqabiliyyətli insan kapitalından irəli gəlir. Məhz daha iddialı və ya ambisiyalı olmaq daha çox məqsədəuyğun ola bilər. Eyni məqsədli iddialar eyni zamanda irəli sürüldükdə, daha çox uğurlu nəticənin əldə edilməsinin mümkün olduğunu düşünürəm.

Əlbəttə, burada innovativ mühitin, qabaqcıl texnologiyaların və modern infrastrukturun da rolu zəruridir, ancaq ilk amillərdən biri, daha öncə də qeyd olunan kimi, insan kapitalıdır - yəni, kadrların iş mühitinə düzgün cəlb olunması.

*- Necə düşünürsünüz, ali təhsil sistemi, universitetlər pandemiyadan hansı nəticələri çıxarmalıdır?*

- Məncə, ali təhsil sistemi hər bir an çevikliyə və yenilikləri qəbul etməyə hazır olmalıdır. Təbii ki, qabaqcıl texnologiyaların da bu istiqamətdə rolu danılmazdır. Həmçinin də, kadrların da mütəmadi olaraq bu istiqamətlərdə istər texniki və ya risklərin idarəolunması kimi təlimlərə göndərilməsi məqsədəuyğun hesab oluna bilər.

*- Pandemiyanın beynəlxalq tələbə mobilliyinə təsiri barədə nə deyə bilərsiniz?*

- Bir sıra xarici universitetlər tələbələri onlayn təhsil proqramlarına cəlb edib və cəlb etməkdə davam edir. Onlayn təhsil bir müddət ərzində fiziki təhsili bəlkə də əvəz edə bilər, ancaq təhsil mühitində canlı ünsiyyət və müzakirələr əvəzolunmazdır. Ümid edirəm ki, tələbələr vəziyyət normallaşandan sonra təhsil aldıqları universitetlərə dönəcəklər.

*- Gələcək hədəfləriniz barədə..*

- Qeyd etmək istərdim ki, xaricdə bakalavr və magistr təhsilimi başa vurduqdan sonra, ölkəyə döndüyüm vaxtdan etibarən, artıq 3 ildir ki, təhsil sahəsində çalışıram. Gələcək hədəfim doktorantura təhsilimi uğurla başa çatdırmaq və Azərbaycana dönüb təhsil sahəsində fəaliyyətimi davam etdirməkdir.

## UNEC məzunu ölkə üzrə ən yüksək nəticəni əldə edib

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) məzunu ölkə üzrə Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə (ÜOMG) görə ən yüksək nəticəni əldə edib.

UNEC-dən bildirilib ki, iqtisadiyyat fakültəsinin Beynəlxalq münasibətlər ixtisasının məzunu Eltac Rəcəbov 99,84 bal toplayaraq, ölkənin digər universitetlərinin məzunları arasında da ÜOMG-yə görə birinci yeri tutub.

Universitetin ənənəsinə uyğun olaraq, E.Rəcəbov ən yüksək bal (98.53) topladığına görə adı UNEC-in fəxri daşına həkk edilib.

Ali məktəbin rektoru, professor Ədalət Muradov E.Rəcəbovla görüşərək, onu ən yüksək nəticə əldə etməsi və məzun adını qazanması münasibətilə təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

Adını universitetin tarixinə uğurlu tələbə kimi yazdıran E.Rəcəbov UNEC məzunu olması ilə qürur duyduğunu ifadə edib, tələbələrin yüksək bilik əldə etmələri üçün yaradılan şəraitə görə ali məktəbin rəhbərliyinə, eləcə də müəllimlərinə təşəkkürünü bildirib.

Sonra E.Rəcəbova 2019/2020-ci tədris ilində UNEC-in ən yüksək bal toplayan məzunu olduğu üçün plaket təqdim olunub.

Qeyd edilib ki, E.Rəcəbov 4 illik təhsili müddətində davamlı olaraq UNEC-in TOP 15 təqaüdünü qazanıb. Magistratura təhsilini Almaniyada almağı planlaşdıran E.Rəcəbov Almaniya hökuməti tərəfindən maliyyələşdirilən DAAD təqaüdünü də əldə edib.

## AzTU rektoru jurnalistlərlə görüşüb

Azərbaycan Texniki Universitetinin (AzTU) rektoru Vilayət Vəliyev Milli Mətbuatın 145 illiyi münasibətilə media nümayəndələri ilə onlayn görüş keçirib.

AzTU-dan bildirilib ki, görüşdə universitetin İctimai Şurasının üzvləri də iştirak ediblər. Rektor media nümayəndələrini Milli Mətbuatın 145 illik yubileyi münasibətilə təbrik edərək deyib ki, ictimaiyyətə düzgün məlumatların çatdırılmasında jurnalistlərin əməyi danılmazdır.

AzTU-nun hər zaman media ilə əməkdaşlıq etməkdə maraqlı olduğunu qeyd edən V.Vəliyev universitetin mövcud problemləri və onların həlli barədə məlumat verib. Qarşıya qoyulan qısamüddətli hədəflərə nail olunduğunu bildirib, həmçinin yaxın zamanlarda ali məktəbin tədris korpuslarından birində texnoparkın fəaliyyətə başlayacağını vurğulayıb. Qeyd olunub ki, AzTU-nun əsas hədəfləri əmək bazarı üçün yüksək ixtisaslı kadr, xidmətlər bazarı üçün əhəmiyyətli elmi tədqiqat və işləmələr təqdim etməkdir.

Daha sonra jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

## ADNSU-da "MAGnUS Yay Məktəbi"nin ilk görüş günü

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) Avropa Birliyi tərəfindən maliyyələşdirilən "Erasmus+ KA2" "MAGNUS - Partnyor universitetlərdə mobil tətbiqlər və kompüter oyunları üzrə magistr tədris proqramlarının yaradılması" layihəsi çərçivəsində onlayn "MAGnUS Yay Məktəbi"-nin ilk görüş gününü təşkil edib.

Universitetdən bildirilib ki, onlayn şəkildə keçirilən yay məktəbini açıq elan edən ADNSU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rafiq Camalov iştirakçılara layihənin əhəmiyyəti və perspektivləri haqqında məlumat verib.

Daha sonra proqrama uyğun olaraq partnyor universitetlərin müəllimləri öz mühazirələrini onlayn formada "MAGnUS Yay Məktəbi" çərçivəsində iştirakçılara təqdim ediblər.

Qeyd edək ki, ADNSU layihədə 7 bakalavr və 2 magistr tələbə ilə təmsil olunur. Ümumilikdə isə Azərbaycan və Rusiya universitetlərindən layihədə 44 tələbə iştirak edir.

## ADMİU-nun müəllimləri onlayn ixtisasartırma kurslarında

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) müəllimləri dünyanın nüfuzlu ali teatr təhsili müəssisələrindən olan Rusiya Dövlət Teatr Sənəti İnstitutunun (QİTİS) təşkil etdiyi onlayn ixtisasartırma kurslarında iştirak ediblər.

ADMİU-dan verilən məlumata görə, peşəkar aktyorlar, rejissorlar və teatr pedaqoqları üçün nəzərdə tutulan kurslar yarım ay davam edib və aktyor sənəti, səhnə danışığı, səhnə hərəkəti istiqamətləri üzrə təşkil olunub.

Kurslara universitetin "SABAH" qruplarının və teatr sənəti fakültəsinin müəllimləri - Mehriban Zəki, Pərviz Məmmədrzayev, Böyükxanım Məmmədbəyova, Nicat Kazımov, Kəmalə Mehdiyeva, Yaqut Paşazadə, Gümrah Ömər, Nofəl Vəliyev, Ruslan Şöhrətoğlu, Ceyhun Dadaşov və Nargilə Qəribova qatılıb. Ali məktəbin müəllimləri ixtisasartırma kurslarında QİTİS-in rektoru Q.Zaslavski, Rusiyanın Xalq artisti, Dram rejissorluğu kafedrasının müdiri, professor İ.Rayhelhauz, Rusiyanın Əməkdar incəsənət xadimləri, professorlar - İ.Promptova və A.Barmak, Səhnə plastikası kafedrasının müdiri A.Zakirov kimi görkəmli teatr pedaqoqlarının məşğələlərində iştirak ediblər.

Bildirilib ki, iştirakçı müəllimlərə ixtisasartırma proqramında iştiraklarını təsdiqləyən vəsiqələr təqdim olunacaq.

# Mingəçevir Dövlət Universiteti: modernləşməyə doğru



**Şahin BAYRAMOV,**
*Mingəçevir Dövlət Universitetinin rektoru*

⇦ Əvvəli səh.1

## MDU-nun müasirləşən profili

*Strateji hədəf və prioritet istiqamətlər*

2019/2020-ci tədris ilində Mingəçevir Dövlət Universitetində (MDU) həyata keçirilən kompleks tədbirlər ilk növbədə əsas strateji hədəfə - paytaxt səviyyəli ali təhsil müəssisəsinə çevrilmək məqsədinə çatmaq yolunda irəliləyişə nail olmağa hesablanmışdır. Bu zaman milli ali təhsilimizdə müşahidə olunan inkişaf trendləri, beynəlxalq ali təhsil məkanında baş verən dəyişikliklərə əsaslanan yeni çağırışlar, eləcə də universitetin mövcud durumu və potensial imkanları əhəmiyyətli dərəcədə nəzərə alınmışdır.

Müasir tədris texnologiyalarının, innovativ təlim metodlarının və çevik universitet idarəetmə mexanizmlərinin tətbiqi MDU-nun milli ali təhsilimizin ümumi xəritəsindəki mövqeyinin gücləndirilməsini, onun Mingəçevir şəhəri və ətraf rayonların sosial-iqtisadi inkişafına daha çox töhfələr verməsini hədəfləyir. Bütün bunlara nail olmaq üçün mövcud şərtlər kontekstində tədrisin keyfiyyətinin yüksəldilməsi, elmi fəaliyyətin səmərəliliyinin artırılması, maddi-texniki bazanın gücləndirilməsi, professor-müəllim və inzibati-texniki heyət üzvlərinin sosial rifahının yaxşılaşdırılması, yerli və xarici universitetlərlə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi, özəl və dövlət qurumları ilə səmərəli işbirliyinin yaradılması prioritet istiqamətlər olaraq seçilmişdir. Həmin istiqamətlər üzrə fəaliyyətin təşkilində qısamüddətli, ortamüddətli və uzunmüddətli perspektivlər nəzərə alınır və fərqləndirilir. Bu bölgü sayəsində bütün cari imkanlardan və mövcud kadr potensialından daha effektiv istifadə mümkün olmuşdur.

Əsaslandırılmış qərarlar və inamlı addımlar MDU-nun yerləşdiyi regionda ümumi ekosistemin mühüm aktorlarından birinə çevrilməsi istiqamətində mühüm inkişaf əldə olunmasına imkan vermişdir. Məhz bu amil həm universitetin populyarlığının və cəlbediciliyinin artmasına, həm də əmək bazarının sürətlə dəyişən tələblərinə cavab verən yüksək ixtisaslı kadr hazırlığının keyfiyyətinin yüksəlməsinə dəstək vermişdir.

*Kadr hazırlığı, tələbə və müəllim heyəti*

Başa çatan tədris ilində universitetdə iqtisadiyyat, mühəndislik və pedaqoji profilləri əhatə edən 23 ixtisas (bakalavriat) və 12 ixtisaslaşma (magistratura) üzrə kadr hazırlığı həyata keçirilmişdir. 3 fakültənin, 10 kafedranın mövcud olduğu universitetdə ümumilikdə 2400-dən artıq tələbə və magistrant təhsil almışdır. 6 tələbə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında 600 baldan yuxarı nəticə göstərmişdir.

Bütövlükdə 300-dən artıq əməkdaşı olan universitetdə 185 professor-müəllim heyəti üzvü çalışır ki, onlardan 61 nəfərin müvafiq istiqamətlər üzrə elmi dərəcəsi, 41 nəfərin isə elmi adı vardır. Hesabat dövründə 1 əməkdaş elmi dərəcə, 1 əməkdaş isə elmi ad almışdır.

## Tədris prosesində məzmun və forma dəyişikliyi

*Çevik qərarlar, struktur islahatları*

İlk dəfə olaraq MDU-da tədris ilinə hazırlıqla bağlı müvafiq əmr verilmişdir. Mövcud qanunvericiliyin tələbləri və aparıcı universitetlərin müsbət təcrübəsi əsasında hazırlanmış əmrdə müvafiq struktur bölmələrinə tədris prosesinin təşkilinə dair konkret tapşırıqlar verilmişdir. Dekanlıqlar, kafedralar və Tədris şöbəsi arasında funksional iş bölgüsünün dəqiq aparılması tədrisin təşkilində səmərəliliyin artırılmasına səbəb olmuşdur.

Struktur islahatları çərçivəsində yeni yaradılan Tədris şöbəsi innovativ yönümlü təhsilin təşkili, proqnozlaşdırılması və planlaşdırılması, keyfiyyətin monitorinqi və qiymətləndirilməsi, tələbələrin qeydiyyatı və hərəkəti, məzunlarla iş, karyera, tyutor xidmətinin yenilənməsi, tədrisə dair sənədləşmələrin sistemləşdirilməsi sahəsində mühüm rol oynamışdır. Şöbənin nəzdində tədrisin təşkili, keyfiyyət təminatı və təcrübə-karyera istiqamətləri üzrə müvafiq bölmələrin yaradılması MDU-da tədris idarəçiliyi mexanizmini əhəmiyyətli dərəcədə təkmilləşdirmişdir.

Tədrisin Nazirlər Kabinetinin 23 aprel 2010-cu il tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramları"nın və Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın tələbləri əsasında təşkili təmin edilmişdir. Yeni təlim texnologiyalarından istifadə, interaktiv dərslərin keçirilməsi üçün elektron avadanlıqlarla təminat, dərslik, dərs vəsaiti və mühazirə mətnlərinin hazırlanması, cari və aralıq qiymətləndirmənin obyektiv və şəffaf keçirilməsi istiqamətində atılan addımlar öz müsbət nəticələrini artıq payız imtahan sessiyasında vermişdir.

*Magistratura təhsilinə fərqli yanaşma*

MDU-da magistratura təhsilinin məzmununun yenilənməsinin vacibliyi və doktorantlarla işin səmərəliliyinin yüksəldilməsi zəruriliyi nəzərə alınmaqla, struktur islahatları çərçivəsində Magistratura və doktorantlarla iş şöbəsinin yaradılması faydalı olmuşdur. Qısa müddət ərzində magistratura səviyyəsində dərslərin təşkili, dərs cədvəllərinin müəyyən edilməsi, magistrantların dərsə davamiyyəti, dissertasiyaların yazılması, elmi və pedaqoji təcrübənin təşkili ilə bağlı çatışmazlıqlar aradan qaldırılmışdır.

## Qlobal pandemiya, adekvat reaksiya və məsafədən təhsil

*Tədrisin davamlılığının təmin olunması*

Pandemiya şəraitində universitetin əsas vəzifəsi tədris prosesində davamlılığın təmin edilməsindən ibarət olmuşdur. Kollektivin məqsədyönlü fəaliyyəti və Təhsil Nazirliyi tərəfindən göstərilən davamlı dəstək nəticəsində MDU bu vəzifənin öhdəsindən gələ bilmişdir. Bütün mümkün online kommunikasiya alətlərindən istifadə, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, infrastruktur imkanların və kadr potensialının səfərbər olunması sayəsində universitetdə tədrisin məsafədən təşkili mümkün olmuşdur.

*Online və offline dərslər*

Cari ilin 17 mart tarixindən etibarən dərslərin "ZOOM" platforması üzərindən online formatda və Youtube kanalı üzərindən təqdim olunan "Videodərslər" vasitəsilə offline rejimdə təşkilinə start verilmişdir. 6 aprel tarixindən etibarən isə Təhsil Nazirliyinin dəstəyi ilə dərslərin "Microsoft Teams" platforması üzərindən də keçirilməsinə başlanılmışdır. Nəticədə, 17 mart-31 may tarixlərində "ZOOM" platforması üzərindən 1504 online dərs keçirilmişdir. Bundan başqa, 6 aprel-31 may tarixlərində "Microsoft Teams" platforması üzərindən 2255 məsafədən dərs təşkil olunmuşdur. Beləliklə, hər iki platforma üzərindən birlikdə 200-dən çox fənn üzrə 3759 virtual dərs keçirilmişdir. Əlavə olaraq, 17 mart-31 may tarixlərində müəllimlər tərəfindən hazırlanmış 710 "videodərs" Youtube kanalında ümumilikdə 100 min dəfədən çox izlənilmişdir.

Hər üç metod üzrə götürdükdə MDU-da müəllimlərin 90%-dən çoxu, tələbələrin 80%-dən çoxu, yaz semestrində tədris olunan fənlərin isə 100%-i məsafədən təhsilə cəlb olunmuşdur. Qiyabi şöbə üzrə bütün dərslər də online formatda təşkil edilmişdir.

## MDU tarixində ilk online imtahan sessiyası

Yaz semestrinin imtahan sessiyası Nazirlər Kabinetinin "Koronavirus (COVID-19) pandemiyasının ölkənin təhsil müəssisələrində təhsil prosesinə mənfi təsirinin aradan qaldırılması ilə

## 2019/2020-ci tədris ili MDU-da uğurla başa çatıb

bağlı bəzi tədbirlər barədə" 18 may 2020-ci il tarixli 179 nömrəli Qərarı, Təhsil Nazirliyinin 20 may 2020-ci il tarixli 01-11-522/15 nömrəli və 22 may 2020-ci il tarixli 04-11-531/15 nömrəli məktubları, MDU-nun Elmi Şurasının 22 may 2020-ci il tarixli 43 nömrəli Qərarı ilə təsdiq olunmuş "Mingəçevir Dövlət Universitetində 2019/2020-ci tədris ilinin yaz semestrində imtahan sessiyasının təşkili Qaydaları" əsasında təşkil edilmişdir.

Qaydalara əsasən imtahan sessiyasının ilk dəfə olaraq "Microsoft Teams" platforması üzərindən online formada şifahi qaydada keçirilməsi qərara alınmışdır. Tələbənin aralıq qiymətləndirilməsi hər biri 10 bal olmaqla 5 suala verilən cavab əsasında həyata keçirilmişdir. Tələbənin cari qiymətləndirilməsinin nəticəsi isə onun aralıq qiymətləndirilməsinin nəticəsinə bərabər götürülmüşdür.

- **Əsaslandırılmış qərarlar və inamlı addımlar MDU-nun yerləşdiyi regionda ümumi ekosistemin mühüm aktorlarından birinə çevrilməsi istiqamətində mühüm inkişaf əldə olunmasına imkan vermişdir.**
- **200-dən çox fənn üzrə 3759 virtual dərs keçirilmişdir. Əlavə olaraq, 17 mart-31 may tarixlərində müəllimlər tərəfindən hazırlanmış 710 "videodərs" Youtube kanalında ümumilikdə 100 min dəfədən çox izlənilmişdir. MDU-da müəllimlərin 90%-dən çoxu, tələbələrin 80%-dən çoxu, yaz semestrində tədris olunan fənlərin isə 100%-i məsafədən təhsilə cəlb olunmuşdur.**
- **Hesabat dövründə MDU-da dörd elm sahəsi üzrə (təbiət elmləri, texniki elmlər, ictimai elmlər, humanitar elmlər) ümumilikdə 13 problemə dair 37 mövzunu əhatə edən 101 elmi iş yerinə yetirilmişdir.**
- **Dünyanın aparıcı elmi-məlumat bazası olan "Web of Science®" platformasında MDU-nun təşkilat profili yaradılmışdır. MDU əməkdaşlarının 9 məqaləsi "Web of Science®" bazasında indekslənən elmi nəşrlərdə dərc olunmuşdur. Həmin məqalələrdən 3-ü yüksək impakt faktorlu jurnallarda çap olunmuşdur. MDU əməkdaşlarının məqalələri üzrə ümumilikdə 23 istinad edilmişdir.**

*Online imtahan modeli*

Sessiyaya hazırlıq istiqamətində görülmüş kompleks tədbirlər və müvafiq əmr əsasında struktur bölmələr arasında aparılmış sistemli funksional bölgü bütövlükdə imtahan prosesinin operativ və çevik şəkildə idarə edilməsinə imkan vermişdir. Qanunvericiliyə edilən dəyişikliklərin yaratdığı imkanlar, karantin dövrünün xüsusiyyətləri və məsafədən tədrisin reallıqları nəzərə alınmaqla, imtahan sessiyasında çoxsaylı güzəştlər tətbiq edilmişdir. Eyni zamanda, universitetin akademik heyəti tərəfindən "Microsoft Teams" və "ZOOM" platformaları üzərindən keçirilən online dərslər və Youtube kanalı üzərindən təqdim olunan "videodərslər" də tələbə və magistrantların müvafiq fənlər üzrə zəruri bilik və bacarıqları əldə etməklə imtahanları uğurla verməsinə ciddi əsaslar yaratmışdır.

İmtahan sessiyasının obyektiv, şəffaf və mütəşəkkil keçirilməsində universitetin akademik və inzibati heyəti, "İmtahan Qərargahı"nın, müəllimlərdən ibarət "İmtahanlara dəstək qrupu"nun və gənc əməkdaşlardan ibarət "Texniki dəstək qrupu"nun üzvləri fəal iştirak etmişlər.

*Məsafədən apellyasiya, "İmtahan könüllüləri" layihəsi*

Tələbə, magistrant və valideynlərin imtahanlarla bağlı müraciətlərinə operativ baxılmasında və təhsilalanların biliyinin obyektiv qiymətləndirilməsinin təmin olunmasında "Apellyasiya Komissiyası" mühüm rol oynamışdır. "Könüllülər ili" elan edilmiş 2020-ci ildə ilk dəfə olaraq MDU-da reallaşdırılan "İmtahan könüllüləri" layihəsinə qoşulan könüllü sonuncu kurs tələbələri imtahan prosesində çevikliyin təmin olunmasına mühüm töhfələr vermişlər. Sevindirici haldır ki, tələbə, magistrant, valideyn və ictimaiyyət nümayəndələrindən MDU-da məsafədən keçirilən dərslər və imtahanlardan məmnunluq ifadə edilən çoxsaylı müraciətlər daxil olmuşdur.

*İmtahan sessiyası rəqəmlərdə*

Sessiya ərzində ümumilikdə 646 imtahanda bakalavriat səviyyəsində I-III kurslarda, magistratura səviyyəsində isə I kursda təhsil alan 1900-dən artıq tələbə və magistrant iştirak etmişdir. Sevindirici haldır ki, ilk dəfə məsafədən keçirilən imtahanlarda faktiki olaraq bütün tələbələrin və magistrantların iştirakı təmin olunmuşdur. Ən əsası isə, imtahanlarda iştirak edənlərin demək olar ki, hamısı müvəffəq qiymət almışdır.

Yaz imtahan sessiyasının nəticələrinə əsasən universitet üzrə bakalavriat səviyyəsində müvəffəqiyyət göstəricisi 99.3%, keyfiyyət göstəricisi isə 27.5% olmuşdur. Qeyd etmək lazımdır ki, payız imtahan sessiyasının nəticələrinə əsasən sözügedən göstəricələr müvafiq olaraq 80.9% və 16.9% təşkil etmişdir. Yaz imtahan sessiyasında magistratura səviyyəsində müvəffəqiyyət göstəricisi 100%, keyfiyyət göstəricisi isə 85% olmuşdur. Anoloji olaraq, payız imtahan sessiyasında həmin göstəricilər müvafiq olaraq 98.4% və 64% təşkil etmişdir.

*Magistrlik dissertasiyalarının online müdafiəsi*

Magistrlik dissertasiyalarının müdafiəsi ilk dəfə olaraq "Microsoft Teams" platforması üzərindən online formatda təşkil olunmuşdur. 11 ixtisas üzrə magistrlik dissertasiyaları müdafiə edən 36 magistrantın hamısı müvəffəq qiymət almış, 31 magistrantın nəticəsi yüksək balla qiymətləndirilmişdir. 13 magistrant MDU-nu fərqlənmə diplomu ilə bitirmişdir.

## Elmi tədqiqat fəaliyyətində yeni yanaşma

*Ənənəvi elmi tədqiqatların müasirləşdirilməsi tələbi*

Tədris ili ərzində elmi tədqiqatların məzmununun təkmilləşdirilməsinə, bu sahədə müasir metodlardan istifadənin artırılmasına və elmi fəaliyyətin nəticəyönümlülük yanaşması üzərində qurulmasına xüsusi diqqət yetirilmişdir. Ənənəvi formada kafedralar tərəfindən reallaşdırılan elmi fəaliyyət çərçivəsində hesabat dövründə MDU-da dörd elm sahəsi üzrə (təbiət elmləri, texniki elmlər, ictimai elmlər, humanitar elmlər) ümumilikdə 13 problemə dair 37 mövzunu əhatə edən 101 elmi iş yerinə yetirilmişdir. Akademik heyətin hamısının cəlb edildiyi bu tədqiqatların keyfiyyətinin ölçüləbilən meyarlar nəzərə alınmaqla yüksəldilməsi əsas tələb kimi qoyulmuşdur və bu prosesdə yeni yaradılmış Elm və innovasiyalar şöbəsi mühüm rol oynamağa başlamışdır.

*Alimlərin sayının artırılması səyləri*

Gənc əməkdaşların və magistraturanı bitirən məzunların elmi fəaliyyətlə məşğul olması üçün imkanlar artırılmış və stimullaşdırıcı tədbirlər həyata keçirilmişdir. 2019-cu ildə Təhsil Nazirliyinin dəstəyi ilə digər universitetlərin doktorantularında MDU üçün 15 məqsədli yer ayrılmışdır. Hazırda universitetin 27 əməkdaşı fəlsəfə doktoru proqramı, 5 əməkdaşı isə elmlər doktoru proqramı üzrə ölkəmizin müxtəlif ali təhsil müəssisələrində və AMEA-nın sahə institutlarında dissertant və doktorantdır. Fəlsəfə doktoru proqramı üzrə 14 nəfər əsasən müdafiəyə hazırdır və müvafiq müdafiə şuralarının fəaliyyətə başlamasını gözləyir.

*RDI Layihəsindən faydalanmaq cəhdləri*

Tədqiqat bacarıqlarının inkişaf etdirilməsi kontekstində, Təhsil Nazirliyi tərəfindən icra edilən və Avropa İttifaqının maliyyələşdirdiyi "Azərbaycanın ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların gücləndirilməsi" (RDI) layihəsinin ekspertləri tərəfindən MDU-da təşkil olunan "Beynəlxalq elmi jurnallarda məqalələrin yazılması" mövzusunda seminar çox faydalı olmuşdur. Bundan başqa, MDU əməkdaşları sözügedən layihə çərçivəsində "Elmi işlərin yazılması və nəşri", "Tədqiqat metodologiyası", "Verilənlərin təhlili, emalı və idarə edilməsi", "Texnoloji transfer və kommersiya", "Sahibkarlıq və startap", "Open Access" mövzularında keçirilmiş təlimlərə də qatılmışlar.

## Tədris ilinin mühüm elmi tədbirləri

*Uğurlu respublika elmi konfransı*

6-7 dekabr tarixlərində MDU-da təşkil olunan "Şəxsiyyət, cəmiyyət, dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar" mövzusunda respublika elmi konfransı ali təhsil və elm ictimaiyyətinin böyük marağına səbəb olmuşdur. 9 elmi istiqaməti əhatə edən konfransa 22 ali təhsil müəssisəsindən, AMEA-nın 16 sahə elmi-tədqiqat institutundan və 5 digər təşkilatdan 3 bölmə (Humanitar; İqtisadiyyat və idarəetmə; Texnika və ekologiya) üzrə ümumilikdə 300-ə yaxın məqalə və tezis daxil olmuşdur. 700 səhifəlik kitab şəklində dərc edilmiş konfrans materialları respublika elmi ictimaiyyəti tərəfindən sanballı elmi nəşr kimi qəbul edilmişdir.

*Dayanıqlı enerji təminatı konfransı*

Başa çatan tədris ilinin elmi hadisələri sırasında 29 noyabr tarixində MDU-da Azərbaycan Texniki Universiteti ilə birlikdə keçirilən "Sosial-İqtisadi İnkişafın Dayanıqlı Enerji Təminatı: universitet-sənaye işbirliyi və innovativ kadr hazırlığı" mövzusunda I regional elmi-texniki konfrans mühüm yer tutur. Konfransın məqsədi energetika sisteminin kadr və elmi-metodiki təminatında universitetlərin rolu, energetikanın müasir problemləri və digər mövzularda müzakirələrin aparılması olmuşdur. Mingəçevir şəhər İcra Hakimiyyəti, "AzərEnerji" ASC, "Mingəçevir Su Elektrik Stansiyaları Silsiləsi" MMC, "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin təmsil olunduğu konfransda universitet-sənaye işbirliyi mövzusunda fikir mübadiləsi aparılmış və potensial əməkdaşlıq imkanları müəyyən edilmişdir.

*Elm gününün geniş qeyd olunması*

27 mart - Elm günü münasibətilə nəzərdə tutulan silsilə tədbirlər virtual formatda keçirilmişdir. Bu sıradan aprel ayında təşkil olunan doktorant, dissertant və gənc tədqiqatçıların iştirakı ilə "Azərbaycan elminin inkişafında gənclərin aparıcı rolu" mövzusunda elmi seminarı və magistrantların elmi-nəzəri konfransını xüsusi qeyd etmək lazımdır. Bundan başqa, Tələbə Elmi Cəmiyyəti tərəfindən aprel ayında hər üç fakultədə keçirilən tələbə elmi konfransları da Elm gününə həsr olunmuşdur. Əməkdaşlar, magistrantlar və tələbələr tərəfindən edilən məruzələr və aparılan diskussiyalar elmi fəaliyyətin stimullaşdırılması, bu sahədə monitorinqin aparılması və mövcud çətinliklərin aşkarlanması baxımından faydalı olmuşdur.

*Universitet-orta məktəb elmi əməkdaşlığı*

Təhsil pillələri arasında varisliyin təmin olunması ideyası çərçivəsində MDU və Mingəçevir Təbiət-Riyaziyyat və Humanitar Elmlər Təmayüllü liseyin birgə təşkilatçılığı ilə "Elmin zirvəsinə gedən yol" mövzusunda keçirilən elmi-nəzəri konfrans uğurlu olmuşdur. Təhsil Nazirliyinin "Kiçik Akademiya"lar proqramı çərçivəsində təşkil olunan konfransda şagirdlər MDU müəllimlərinin elmi rəhbərliyi ilə hazırladıqları elmi məruzələri təqdim etmişlər.

## MDU "Web of Science®" platformasında

*Universitetin profilinin yaradılması*

Dünyanın aparıcı elmi-məlumat bazası olan "Web of Science®" platformasında MDU-nun təşkilat profili yaradılmışdır. Bu, əməkdaşların elmi nəticələrini ölçməyə, onların məqalələrini və həmin məqalələrə edilən istinadları izləməyə imkan verəcəkdir. Belə ki, elmimetrik funksiya daşıyan bu baza elmin müxtəlif istiqamətləri üzrə yalnız informasiyanı toplamaqla deyil, həmçinin elmi informasiyanı emal etmək, onu vaciblilik və mühümlülük baxımından prioritetləşdirməklə də məşğuldur.

Yeni yaradılan profilin cari göstəricilərinə əsasən bu vaxta qədər MDU əməkdaşlarının 9 məqaləsi "Web of Science®" bazasında indekslənən elmi nəşrlərdə dərc olunmuşdur. Həmin məqalələrdən 3-ü yüksək impakt faktorlu jurnallarda çap olunmuşdur. MDU əməkdaşlarının məqalələri üzrə ümumilikdə 23 istinad edilmişdir.

MDU alimlərinin "Web of Science®" bazasına daxil olan elmi məqalələri əsasən kimya mühəndisliyi, yanacaq energetikası, riyaziyyat, tətbiqi kimya və multidissiplinar kimya sahələrinə aiddir. Hamısı ingilis dilində yazılmış məqalələr Azərbaycan, Almaniya, Polşa və Rusiyanın müxtəlif elmi təşkilat və tədqiqatçıları ilə birgə əməkdaşlıq nəticəsində ərsəyə gəlmişdir.

*MDU-Clarivate Analytics tərəfdaşlığı*

Clarivate Analytics şirkəti ilə sürətlə inkişaf etdirilən tərəfdaşlıq çərçivəsində MDU-nun sözügedən baza üzrə göstəricilərinin daha da yaxşılaşdırılması məqsədilə şirkət tərəfindən universitetin əməkdaşları üçün müvafiq təlimlərin təşkil edilməsi nəzərdə tutulmuşdur. Bu sıradan ilk vebinar MDU-nun 70-dən artıq əməkdaşının iştirakı ilə cari ilin 25 iyun tarixində keçirilmişdir.

**(Ardı var)**

Azərbaycan milli mətbuatı - 145



İsmayıl Qaspıralı, Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov

# Milli mətbuatımızın banisi, böyük maarifçi-ziyalı



**Əsgər QULİYEV,**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədris resursları şöbəsinin müdir müavini, filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

⇦ Əvvəli səh.1

*“-Dünyada ittifaq olmasa, heç bir cəmiyyət işi bina tutmaz. Bizim sabiq cəmiyyəti-xeyriyyə bina tutmadığından, teatr oynanan otaq boş qaldığından aşkar oldu ki, müsəlman qardaşlarımızı bir yerə cəm edib, zəmanəyə müvafiq məktəbxanalar açdırıb, küçə və bazarlarda qalan uşaqları oxutmaq olmayacaq. Elmsiz də bu zəmanədə dolanmaq mümkün deyil. Ələlxüsus, bizim yerlərdə ki, qonşularımız elm təhsil edib günü-gündən irəli gedir, bizim əlimizdə olan mülkü-malımıza sahib olurlar...*

*Belə də nə qayırmalı? Hər kəsi çağırıram gəlməyir, göstərirəm görməyir, deyirəm qanmayır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç biri qanan olmasın!...*

*Belədə qəzetə çıxarmaqdan savay bir qeyri əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin. Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar... Sonra düşmənin düşmənliyi, dostun dostluğu və dost göstərən doğru yolun doğru olmağı aşkar olar...” (“Həyat” qəzeti 28.12.1905 , N129)*

Beləcə böyük amallar-millətin maariflənməsi üçün anadilli qəzetin dəyərini dərindən dərk edən Həsən bəy Zərdabi gərgin mübarizələr və çoxsaylı yazışmalardan sonra qəzetin çapına razılıq alır. 1875-ci il iyulun 22-də Bakıda ana dilində ilk Azərbaycan qəzeti “Əkinçi”nin ilk nömrəsi Abbasqulu ağa Bakıxanovun kiçik qardaşı, rus ordusunun general-mayoru Abdulla bəy Bakıxanovun maliyyə yardımı ilə çapdan çıxır. Bununla da Həsən bəy növbəti “ilk”lərdən birinə-milli mətbuatın təməlinin qoyulması şərəfinə nail olur. Deməliyik ki, qəzetə “Əkinçi” adı təsadüfi verilməmişdi. Bu adda qəzetin kənd təsərrüfatı təmayüllü olmasını düşünmək yanlışlıq, sadəlöhvlük olardı. Həmin ad altında dərin və böyük rəmzi məna, geniş və əhatəli fəaliyyət proqramı nəzərdə tutulmuşdu. Qəzeti nəşr etməkdə əsas məqsəd, başlıca qayə həmvətənlərinin qəlbinə, şüuruna maarif, elm, mədəniyyət toxumu səpməkdən ibarət idi. Başqa sözlə, maarif, təhsil əkinçisi üçün ən böyük meydan, münbit tarla şüurunu milli biganəlik, nadanlıq və cəhalətin “alaq otları” basmış geniş kütlə, savadsız xalq ola bilərdi...

“Əkinçi”nin məram və məqsədləri qəzetdə bu cür təqdim olunurdu:

“Əkinçi” - tərbiyəçi olub xalqın xoşbəxtliyi haqqında düşünür, xalqın maariflənməsinə çalışır;

“Əkinçi” - bələdçi olub dünyəvi elmlərin öyrənilməsinə və insanları işığa, yaxşılığa səsləyir;

“Əkinçi” - bir ayna kimi bütün əyrilikləri göstərir, təmizliyin, səadətin, xoşbəxtliyin yoluna işıq tutur;

“Əkinçi” - bir həkim kimi insanları acı dərmanlarla nadanlıq xəstəliyindən müalicə edir ki, bizdən sonra gələnlər nadanlıq mərəzinə tutulmasınlar... (Ətraflı bax: Əkinçi: (1875-1877) Tam mətni. Bakı 2005 s. 379-380).

Bəli, “Əkinçi” qəzeti fəaliyyət göstərdiyi (1875-1877) illərdə özünün müqəddəs amalına - xalqın maariflənməsinə ləyaqətlə xidmət etdi. O, tezliklə xalq maarifi və mədəniyyətinin, ana dilli məktəblərin böyük çarçısı oldu. Lakin bu sevincli günlər uzun sürmədi. Bu işdə də erməni xəyanəti öz işini gördü. “Əkinçi”nin mürəttibi Minasovun donosları nəticəsində “Əkinçi” qapandı. “Əkinçi” bağlansa da, onun əkdiyi maarif, elm və mədəniyyət toxumları tezliklə öz bəhrələrini verdi: yeni-yeni məktəblər açıldı, qəzetlər yarandı... “Əkinçi”nin davamçısı Krımda böyük mesenat Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə türk dilində ikinci qəzet olan “Tərcüman” (1883-1919) Həsən bəyin dostu böyük türkçü İsmayıl bəy Qaspıralının redaktorluğu ilə nəşrə başladı. Bu qəzetin nəşrini Həsən bəy türklüyün bayramı kimi qarşılamışdı...Çox maraqlıdır ki, sonralar türk dünyasında “Üsuli-cədid məktəb”lərinin (müasir avropa tipli məktəblər) böyük carçısı, “Dildə, fikirdə, əməldə birlik” ideyasının müəllifi olan İsmayıl bəy Qaspıralı Rusiyada türkdilli mətbuatın “Əkinçi” qəzeti ilə başlandığını etiraf edir, Həsən bəyi isə bu sahənin patriarxı, özünün böyük müəllimi adlandırırdı...

Qəzetin qapanmasından sonra Həsən bəyin qara günləri başlandı. Düşmənləri onu təqib etməyə başladılar. Günlərin birində Həsən bəyə məlumat verildi ki, sərdarın əmri ilə məcburi qaydada Yekaterinodara (Stavropola) gimnaziyaya müəllim göndərilirsiniz. Lakin H.Zərdabi “Mən Bakıdan çıxıb müsəlman işlərindən kənar olmağı özüm üçün ölüm hesab edirəm”, - deyərək öz ərizəsi ilə müəllimlikdən istefa versə də, Stavropolda 5 illik sürgün həyatı yaşamağa məcbur edildi... (Çox qəribədir. Tarixin ironiyasına baxın. Stavropola getməkdən imtina edən Həsən bəyin böyük oğlu Midhət bəy Məlikovun ailəsi keçən əsrin 30-cu illərində “qırmızı terrora” məruz qaldı. Özü güllələndi. Ailə üzvləri - həyat yoldaşı Lidiya xanım və qızı Fatma Məlikova Stavropola köçüb orada məskunlaşmaq zorunda qaldılar. Həsən bəyin kötükcəsi Hacağa Stavropolda tibb təhsili almışdı...).

Stavropoldakı sürgün həyatını başa vuran Həsən bəy 1881-ci ildə doğulduğu Zərdab kəndinə qayıdıb orada yaşamaq məcburiyyətində qalır. Böyük ömrün bu illəri də doğma xalqa xidmətdə keçir. Mühafizəkarların fitnə-fəsadlarına, acı tənələrinə mərdliklə dözən Həsən bəy burada da maarifçilik əməllərini davam etdirir, müxtəlif qəzetlərə məqalələr yazıb göndərir, “Dildə, fikirdə, əməldə birlik” ideyasını, təhsildə yenilikçiliyi, müasirliyi təbliğ edən İsmayıl bəy Qaspıralının “Tərcüman” qəzetindəki fikirlərinin əhali arasında yayılmasını təşkil edir. Lakin düşmənləri onu “şapkalı urus”, “sünni Həsən bəy” adlandırıb nüfuzdan salmaq istəyirdilər... Yeri gəlmişkən, deməliyik ki, Həsən bəy hökumət idarələrində uzunmüddətli xidmətinə görə “Müqəddəs Anna” qızıl medalı ilə təltif olunmuşdu. Lakin onu heç zaman yaxasına taxmamışdı. Hətta Qafqazın sərdarı Bakıya gələndə xaç şəkilli medalı döşünə taxmamaq üçün özünü xəstəliyə vurmuşdu... Bəli, Həsən bəy rus təhsilli olsa da, milli ruhlu, vətənpərvər ziyalı idi, əsil müsəlman təəssübkeşi və türk milliyyətçisi idi...

Uzun ayrılıqdan sonra Həsən bəy 1896-cı ildə öz uşaqlarının təhsilini davam etdirmələri səbəbindən Bakıya köçür. Onu da bildirək ki, iki il əvvəl Həsən bəyin kürəkəni Ə. Topçubaşov da ailəsi ilə birgə Tiflisdən Bakıya köçmüşdü. Əvvəl “Kaspi” qəzetində işləməyə başlayır. Çox keçmir ki, Bakı şəhər Dumasına qlasnı (deputat) seçilir, maarif komissiyasının üzvü olur. O, hər zaman Dumanın iclaslarında şəhərin uzaq məhəllələrində məktəb və Bakıda Aleksandra Fyodorovna adına rus-müsəlman Qadın Məktəbi (“Tağıyevin Qız Məktəbi”) açıldı. Bununla böyük maarifçi H.Zərdabinin uğrunda illərlə mübarizə apardığı azərbaycanlı qızlar üçün təhsil müəssisəsi yaratmaq ideyası reallaşdı. Bu məktəbin açılmasında müstəsna rol oynamış H.Zərdabi həmin məktəbin Nizamnaməsini də özü yazmış, məktəbin qəyyumlar şurasının üzvü seçilmişdi. Məktəbin ilk müdiri Həsən bəyin ömür-gün yoldaşı və silahdaşı Hənifə xanım Məlikova - Abayeva təyin edilmiş, kürəkəni Ə.Topçubaşov məktəbin qəyyumlar şurasının üzvü seçilmişdi...

Bu da tarixi həqiqətdir ki, H.Zərdabinin təşəbbüsü ilə Bakıda Azərbaycan müəllimlərinin 2 qurultayı çağırılmış, 1906-cı ildə keçirilən I qurultay onun sədrliyi ilə baş tutmuş, ciddi qərarlar qəbul edilmişdi. II qurultayda Həsən bəy xəstə olduğu üçün iclaslarda iştirak etməsə də, qurultaya (həmin qurultayda sədrliyi Əli bəy Hüseynzadə etmişdi) təbrik məktubu göndərməyi unutmamışdı...

Həsən bəy xəstə olduğu dövrlərdə xəstəxana açılması məsələsini qaldırır, çox hallarda onun müsbət həllinə nail olurdı. Təsadüfi deyil ki, onun deputatlıq vaxtında “Rus-tatar (Azərbaycan)” məktəblərinin sayı üçdən on altıya yüksəlmişdi. Həsən bəy həmin məktəblərdə ana dili tədrisinin həcmini artırmaq uğrunda daim mübarizə aparırdı. Bakıdakı xeyriyyə cəmiyyətlərinin işində yaxından iştirak edirdi. XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakıda milli ziyalıların bir araya gəlməsində, vahid milli Azərbaycan ideyası ətrafında birləşməsində H.Zərdabinin müstəsna rolu olmuşdu.

Bu dövrdə onun qadın təhsili ilə bağlı ideyalarının gerçəkləşməsi istiqamətində mühüm hadisələr baş verdi. Böyük mesenat Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi və H.Zərdabinin ideya müəllifliyi ilə 1901-ci ildə də xalqın maarif və mədəniyyəti naminə məsləhətlərini əsirgəməmişdi. Fərhad Ağazadənin xatirələrinə görə, bir gün Üzeyir bəy Hacıbəyov xəstə Həsən bəyi ziyarət edir. Həsən bəy əl işarələri ilə ondan bir opera yazmasını xahiş edir. Təklif məmnuniyyətlə qəbul edilir. 1908-ci ildə “Leyli və Məcnun” operası beləcə yaranır...

Azərbaycan maarifçilik hərəkatının korifeylərindən olan Həsən bəy Zərdabi 1907-ci il noyabrın 28-də Bakıda dünyasını dəyişdi. Ertəsi gün böyük izdiham və təntənə ilə şəhərin Bibiheybət qəbiristanlığında dəfn olundu. Azərbaycanın XX əsr tarixində o zaman üçün görünməmiş qələbəliklə keçən dəfn mərasimində böyük maarifçinin cənazəsini çiyinlərdə daşıyan insan axını üç yerdə - Bakının məşhur Qasımbəy məscidinin həyətində, “Kaspi” qəzetinin redaksiyasının (redaksiya indiki Sabir bağında yerləşirdi. 1918-ci il mart hadisələrində ermənilər tərəfindən yandırılmışdı) və Bakı şəhəri Dumasının qarşısında dayanmış, Həsən bəyin xidmətləri haqda nitqlər söylənmişdi. Dəfn mərasimində məşhur ziyalılardan Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Məmmədəmin Rəsulzadə, Qara bəy Qarabəyov, Məmmədhəsən Əfəndiyev, İsgəndərbəy Məlikov, Haşım bəy Vəzirov, İsa bəy Aşurbəyov və başqaları nitq söyləmişdilər. Həsən bəy bütün işlərdə olduğu kimi, ölümü ilə də “ilk”inliyini qorumağı bacardı... Bakı şəhər Duması Həsən bəyin xatirəsini əbədiləşdirmək üçün şəhər məktəblərindən birinə adının verilməsi, abidəsinin qoyulması və Moskva Dövlət Universitetində təhsil alan azərbaycanlı tələbələrə vermək üçün “Həsən bəy Zərdabi təqaüdü” təsis edilməsi haqqında qərar qəbul etmişdi. Bunlardan yalnız sonuncusu yerinə yetirildi. Belə ki, Moskva Dövlət Universitetinin tələbələri olmuş Mustafa bəy Vəkilov, Tağı bəy Qəniyev, eləcə də Riqa Politexnik İnstitutunda bir müddət təhsil almış Həsən bəyin kiçik oğlu Səffət bəy Məlikov həmin təqaüdü almışdılar...

Onu da deyək ki, bu böyük insanın qəbri 1937-ci ildə Bibiheybət məscidi dağıdılanda köhnə Bakı qəbirstanlığına, 1948-ci ildə Nazirlər Sovetinin qərarı ilə Bakıda Fəxri Xiyaban yaradılanda ora köçürülmüşdür... (Bax: Fəxri Xiyaban. Bakı: Heydər Əliyev Fondu, 2007) Qəbri nurla dolsun...

Bir neçə kəlmə də Həsən bəyin ailə üzvləri haqda demək istərdim. Həsən bəyin arvadı Hənifə xanım 1856-cı ildə Nalçikdə anadan olmuş, 1929-cu ildə Bakıda dünyasını dəyişmişdir. Görkəmli maarif xadimi kimi tariximizə imza atmış Hənifə xanım H.Z.Tağıyevin “Qız məktəbi”ndə, Bakı I rus-Azərbaycan məktəbində, Xalq Cümhuriyyəti dövründə I Qadın türk məktəbində müdir, sovet dövründə Bakı şəhər I pillə məktəblərində müəllim işləmişdir. 1925-ci ildə “Əkinçi” qəzetinin 50 illiyi ilə əlaqədar Həsən bəy Zərdabinin bioqrafiyasını qələmə almışdı...

Həsən bəyin dörd övladı - iki oğlu, iki qızı olmuşdu.

Böyük qızı Pəri xanım 1873-cü ildə Bakıda doğulmuş, 1893-cü ildə Tiflis Qadın Gimnaziyasını bitirmişdir. O, görkəmli siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun həyat yoldaşı olub. Beş övladı (üç oğlu və iki qızı) vardı. 1920-ci ildən Fransada yaşayıb və 1947-ci ildə orada vəfat edib.

İkinci qızı Qəribsoltan xanım 1889-cu ildə Zərdabda anadan olub, 1967-ci ildə Bakıda rəhmətə gedib. Övladı olmayıb. Görkəmli bəstəkar Rauf Hacıyev və bacısı Adilə xanımın təlim-tərbiyəsində xüsusi xidmətləri olub. Onlara analıq edib. Tağıyevin Qız məktəbinin məzunu kimi uzun illər müəllimliklə məşğul olub.

Böyük oğlu Midhət bəy Moskvada ali texniki təhsil alıb. Ötən əsrin mənfur 30-cu illər repressiyasının qurbanı olub. Onun yeganə övladı 1925-ci ildə anadan olmuş Fatma xanım repressiya illərində Stavropolda yaşamış, sonralar Bakıya qayıtmış və ali təhsil almışdı...

Həsən bəyin kiçik oğlu Səffət bəyin doğum və ölüm tarixləri məlum deyil. O, 1914-17-ci illərdə Riqa Politexnik İnstitutunda oxumuş, Rusiyada fevral çevrilişi səbəbindən təhsilini tamamlaya bilməmişdi. Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə xaricə ali təhsil almağa göndərilən 100 azərbaycanlı tələbədən biri kimi Almaniyada ali təhsilini 1922-ci ildə tamamlamışdı. Sovet rejimindən qorxaraq vətənə dönə bilməmişdi. Bir müddət Parisdə bacısı gildə yaşamış, sonra İstanbula köçərək, orada da ömrünü başa vurmuşdu. Səffət bəydən sonuncu məktub Rauf Hacıyevə 1970- ci ildə gəlmişdir. Bundan sonra nə ondan, nə də arvadı Nəfisə xanımdan bir xəbər olmuşdu. Azərbaycan sovet hökuməti 1921- ci ildə onun “varlı ailədən olduğunu və Ə.Topçubaşovla qohumluğunu” əsas gətirərək dövlət təqaüdündən məhrum etmişdi. Hənifə xanım Xalq Komissarlar Soveti və Maarif Komissarlığına müraciət edərək, Nəriman Nərimanov və Dadaş Bünyadzadənin köməkliyi ilə Səffətə təqaüd verilməsini çətinliklə bərpa etdirə bilmişdi...

Ümumiyyətlə, sovet dövründə H.Zərdabinin ailəsi də bu və başqa şəkildə repressiyalara məruz qalmış, adı ilə bağlı hər şey on illər boyu yasaqlanmışdı. Bu böyük maarif fədaisinin təmiz adı və ölməz əməlləri yalnız 1956-cı ildə sovet rejimində “yumşalmadan” sonra özünə qaytarıldı və bəraət aldı... Əsərləri çap olundu, haqqında dəyərli əsərlər yazıldı. Bakıda abidəsi qoyuldu, Gəncə Dövlət Pedaqoji İnstitutuna onun adı verildi...

Son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən “Həsən bəy Zərdabinin 170 illik yubileyinin keçirilməsi” haqqında xüsusi sərəncam imzalanmış, maarif və mədəniyyətimizin bu böyük korifeyinin, milli mətbuatımızın həqiqi patriarxının həyat və fəaliyyətinə dair dövlət səviyyəsində silsilə tədbirlər keçirilmişdir.

İnanırıq ki, “Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin məlum sərəncamı da mətbuat tariximizə şanlı səhifələr yazmış Həsən bəy Zərdabinin həyat və fəaliyyətinin daha dərindən öyrənilməsinə yeni imkanlar yaradacaqdır.

Müstəqil Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri maarif və mədəniyyətimizin bu böyük korifeyinin, milli mətbuatımızın həqiqi patriarxının, bütün şüurlu həyatını xalqının maarif və mədəniyyətinin inkişafına həsr etmiş bu böyük ziyalının zəngin irsinin xalqımıza, xüsusən də, çağdaş Azərbaycan gəncliyinə gərəyincə və yetərincə tanıdılmasına öz layiqli töhfələrini verəcəkdir.

Böyük ictimai-siyasi xadim Ə.Topçubaşov Azərbaycan mətbuatının - “Əkinçi”nin 50 illiyinə həsr etdiyi “Azərbaycanın yolgöstərəni” (Paris, 1925) adlı əsərində “Əkinçi” qəzetinin nəşrini Həsən bəyin doğma xalqına xidmətinin ən yüksək zirvəsi, öz millət üçün qaranlıqda yolgöstərən mayak ucaltdığını qeyd edərək yazırdı: “İnsanlara yol göstərən bu maarif mayakını, işıq mənbəyini ehtiramla salamlamaq indi Azərbaycanın, ... hər bir Azərbaycan vətəndaşının mənəvi vəzifəsi, vətənpərvərlik borcudur..”.

Hesab edirik ki, neçə ki Azərbaycanın zəngin məktəb və pedaqoji fikir tarixi, çoxəsrlik mətbuat və mədəniyyət tarixi var, deməli, çağdaş mətbuatımızın qurucusu, böyük maarif mücahidi, teatr sənətinin yaradıcısı, qadın təhsilinin böyük carçısı, vətənimizdə milli oyanış hərəkatının ideoloqu Həsən bəy Zərdabinin müqəddəs adı və təkrarolunmaz əməlləri də hər zaman var olacaq, xalqımızın qan yaddaşında həmişə yaşayacaqdır...

**Həsən bəy Zərdabi:**

**“Bizim zəmanəmiz elm zamanıdır...”**

- **Həsən bəyin rəhbərlik və təşkilatçılığı ilə “Hacı Qara” əsərini 1873-cü ildə gimnaziyanın salonunda öz şagirdləri Nəcəf bəy Vəzirov və Əsgərağa Goraninin köməyi ilə (hər iki gimnazist sonralar Moskva Kənd Təsərrüfatı Akademiyasını bitirmişdi) tamaşaya qoyulur. Tamaşadan toplanan vəsait yoxsul şagirdlərin təhsil xərclərinə yönəldilir.**
- **Beləcə böyük amallar-millətin maariflənməsi üçün anadilli qəzetin dəyərini dərindən dərk edən Həsən bəy Zərdabi gərgin mübarizələr və çoxsaylı yazışmalardan sonra qəzetin çapına razılıq alır. 1875-ci il iyulun 22-də Bakıda ana dilində ilk Azərbaycan qəzeti “Əkinçi”nin ilk nömrəsi Abbasqulu ağa Bakıxanovun kiçik qardaşı, rus ordusunun general-mayoru Abdulla bəy Bakıxanovun maliyyə yardımı ilə çapdan çıxır.**
- **Böyük mesenat Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi və H.Zərdabinin ideya müəllifliyi ilə 1901-ci ildə Bakıda Aleksandra Fyodorovna adına rus-müsəlman Qadın Məktəbi (“Tağıyevin Qız Məktəbi”) açıldı. Bununla böyük maarifçi H.Zərdabinin uğrunda illərlə mübarizə apardığı azərbaycanlı qızlar üçün təhsil müəssisəsi yaratmaq ideyası reallaşdı.**




# "Azərbaycan qəhrəmanı"

## Virtual düşərgəyə start verilib

İyulun 20-də Təhsil Nazirliyinin dəstəyi, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycan qəhrəmanı" adlı virtual düşərgəyə start verilib.

COVID-19 pandemiyası ilə əlaqədar virtual təşkil olunan düşərgənin keçirilməsində əsas məqsəd böyüməkdə olan gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə diqqəti artıraraq onlarda qəhrəmanlıq hisslərini gücləndirmək, milli-mənəvi dəyərləri təbliğ etmək, dövlətçiliyimizin qorunub saxlanması, gənclərimizin mərd və cəmiyyətə yararlı vətəndaş kimi formalaşması, eyni zamanda son günlər Tovuz rayonu istiqamətində Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təzyiqi nəticəsində Vətən uğrunda həlak olmuş şəhidlərimizin xatirəsini əziz tutmaqdan ibarətdir.

Düşərgənin proqramına "Ölkənin tarixi", "İlk tibbi yardım", "Ərazidə sağ qalmaq", "Səmti müəyyənetmə", "Sağlam həyat tərzi", "Döyüş sənəti növləri", "Şahmat", "Məntiqi kvest", "Proqramlaşdırma", "Liderlik" kimi 10 fərqli istiqamət daxildir.

Virtual düşərgəyə Bakı şəhəri və respublikamızın regionları ilə yanaşı dünyanın müxtəlif ölkələrində yaşayan ümumilikdə 100 nəfər 12-15 yaşlı azərbaycanlı uşaqlar qatılıb.

Layihə çərçivəsində gənclərə Qarabağ müharibəsi veteranları, Avropa və dünya çempionları, respublikanın tanınmış müəllimləri də daxil olmaqla peşəkar təlimçilər tərəfindən təlimlər keçirilir.

5 gün davam edəcək düşərgəyə iyulun 25-də yekun vurulacaq.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 5618, **Sifariş** 1775

**Məsul növbətçi:** O.Mustafayev

# Riyaziyyatın tədrisi zamanı zəif şagirdlərlə iş

**Ziba İSMAYILOVA,**
*Şəki rayonu Cumaykənd tam orta məktəbinin ibtidai sinif müəllimi*

İbtidai siniflərdə hələ riyaziyyat təliminin ilk mərhələlərindən başlayaraq müxtəlif vasitələrdən istifadə edərək ardıcıl təmrinlər veririk ki, şagirdlərdə riyazi vərdişlər yaransın. Bu zaman müxtəlif optimal üsullardan istifadə edirəm. Mən də ibtidai sinif şagirdlərinə riyaziyyatı tədris etdiyim zaman müxtəlif didaktik materialların - çöplər, kublar, şəkillər, düymələr, çötkə, lobya və s. köməyindən yararlanıram. Böyüdükcə hesab taxtasından, 100 kv. cədvəlindən və 20 dairəsində toplama və çıxmanı öyrətmək üçün ədəd oxun üzərində irəli və geri saymaqla, ədədin ikiqatından istifadə etməklə və digər üsullara müraciət edirəm.

Təbii ki, sinifdəki bütün şagirdlərin qavrama və öyrənmə qabiliyyəti eyni olmur. Yaxşı qavrama qabiliyyəti olan şagirdlərlə yanaşı, sinifdə zəif şagirdlər də olur. Zəif şagirdləri yaxşı oxuyan yoldaşlarına çatdırmaq, düşünürəm ki, müəllimin borcudur. Odur ki, əvvəlcə sinifdəki zəif uşaqları müəyyən edirəm və onlarla məşğul oluram. Əgər belə olmasa, zəif şagirdlər kollektiv qruplarla iş, cütlərlə iş zamanı fəal şagirdlərin "kölgəsində" qalacaqlar. Hətta qruplarla iş zamanı öz yoldaşları belə zəif şagirdləri öz qruplarında görmək istəmirlər. Bu çətinliyi aradan qaldırmasaq, vəziyyət getdikcə daha da ağırlaşır, nəticədə zəif şagirdlərin əsas fənlərdən biri sayılan riyaziyyatdan uzaqlaşmasına səbəb olar. Çünki belə hallar şagirdlərdə özünə inamı aşağı salır. Bu problemi həll etmək üçün əvvəlcə şagirdə özgüvən hissini aşılamaq lazımdır. Özünə inamı olmayan şagirdlər isə bu cür çətinliyin öhdəsindən gələ bilmirlər. Odur ki, belə şagirdlərə deyirəm ki, sən toplama və çıxmanı öyrənə biləcəksən. Mən sənin yanındayam. Gəl hesablayaq. 82+2=? 7+5=? 9+4=? 8+6=? 9-3=? 14-5=? və s. Böyük ədədi ədəd oxundan tap. Kiçik ədədi üstünə say. Və ya böyük ədədi tap, kiçik ədədi geriyə say və s."

Ancaq bu yollar vaxtı uzadır. Tez hesablama üçün toplama zamanı öyrədirəm ki, böyük ədədi yadında saxla (8), kiçik ədədi (2) barmağınla üstünə say. 7+5=? Bu zaman şagird 7 rəqəmini yadında saxlayır, 5 rəqəmini barmağı ilə üstünə sayır. Və yaxud 78+8=? Bu suala cavab axtaran şagird 70 rəqəmini yadda saxlayır, 8 rəqəmini üstünə sayır və s. Bu işlərin müntəzəm təkrarı şagirdin hesablama qabiliyyətini artırır.

Çıxmanın tədrisi zamanı da zəif oxuyan şagirdlərə işi belə təşkil edirəm. Daha çox da onluq ayrılan hal üçün belə bir üsuldan istifadə edirəm. Bəzən valideynlər də mənə müraciət edirlər ki, necə tez öyrətmək olar. Belə bir çıxma əməliyyatını icra edək: Azalan 27, çıxılan 8. Azalandan - 2 onluqdan (20) 1 onluq (10) götürüb çıxılanı (8) çıxıram (2), üstünə azalandakı təkliyi (7) gəlirəm və cavabı alıram (19).

Şagirdlərdən soruşuram: 94-6=? Cavabları belə olur: 10-dan 6-nı çıxıram, 4 alınır. 4-ün üstünə 4 gəlirəm (4+4=8). Biz yuxarıda 94 rəqəmindən 1 onluq götürdüyümüz üçün yerdə 80 qalmışdı. Aldığımız 8 rəqəmini də 80-nin üstünə gəlib cavabı alırıq (88).

83-7=? Bu çıxma əməlinin cavabını tapmaq üçün belə bir üsuldan istifadə edirik: 10-7+3=6. Sonda alınan 6 rəqəmini 70-in üzərinə (çünki 80-dən bir onluq götürmüşdük) gəlib cavabı alırıq (76) və s.



Üçrəqəmli ədədlərin çıxılmasını şagirdlərə daha yaxşı mənimsətmək üçün də bu üsul köməyimə gəlir:

```
  346
- 189
  ---
  157
```

10-dan 9-u çıxıb üstünə 6 gəlirik: 10-9+6=7

10-dan 8-i çıxıb üstünə 3 gəlirik: 10-8+3 = 5

Dördrəqəmli ədədlərin çıxılmasında da bu üsuldan istifadə edirik:

Onluqdan 6 təkliyi çıxıb 2-ni üstünə gəlirik: 10-6+2=6

1 onluqdan 8 təkliyi çıxıb üstünə 6 təkliyi gəlirik: 10-8+6=8

1 onluqdan 7 təkliyi çıxıb üstünə 5 təkliyi gəlirik: 10-7+5=8

Çubuqlu bölmənin çıxma hissəsində də bu üsul əlverişlidir:

```
- 9734 | 11
  88   |-----
  ---  | 884
 - 93
   88
   ---
  - 54
    44
    ---
    10 (q)
```

Bir onluqdan 8 təkliyi çıxıb üstünə 7 təkliyi gəlirik: 10-8+7=9

Bir onluqdan 8 təkliyi çıxıb üstünə 3 təkliyi gəlirik: 10-8+3=5

Bu kimi üsullardan istifadə etməklə ibtidai siniflərdə riyaziyyatın tədrisində hədəfə çatmaq mümkündür. Bu, yuxarı siniflərdə riyaziyyat və başqa fənlərin mənimsənilməsini asanlaşdırır.

# Etibarsız sayılır

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Bayramlı Nigar Asif qızına verilmiş C-236823 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 43 nömrəli Məktəb Lisey Kompleksi 2015-ci ildə bitirmiş Əlizadə Ömər-Nuru Nadir oğluna verilmiş AN-401871 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 2 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş İbadova Səidə İlham qızına verilmiş A-438887 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** Qarakeçdi kənd 2 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Məmmədov Budaq Elburus oğluna verilmiş B-205273 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayonu** Cağar qışlaq kənd tam orta məktəbini 2011-ci ildə bitirmiş Qurbanova Könül Ənvər qızına verilmiş A-078796 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayonu** Həzrə kənd tam orta məktəbini 2013-cü ildə bitirmiş Qaçayeva Saçi Eyvazovnaya verilmiş A-257666 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 3 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Davıdov Mamed Kamil oğluna verilmiş A-257751 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 5 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Babazadə Nurlan Nazim oğluna 2017-ci ildə eksternant yolu ilə verilmiş E-060635 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2015-ci ildə Babayeva Pərvanə Məmməd qızına verilmiş A-072879 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı Asiya Universiteti** tərəfindən 2012-ci ildə Musayev Niyaməddin Qurban oğluna verilmiş B-254476 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** Mehdili kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Cavadlı Kamran Tahir oğluna verilmiş A-360654 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Mosul kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Abbasova Nargilə Üzeyirovnaya verilmiş A-124278 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**9 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2003-cü ildə Hüseynov Elnur Şamxal oğluna verilmiş AB-070482 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 99 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Mürsəlov Anar Məhəmməd oğluna verilmiş B-315249 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Mirzəqurbanlı kənd ümumu məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Əbilova (Əliyeva) Aynurə Alim qızına verilmiş A-400710 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu** tərəfindən 1994-cü ildə Alxasova Sabrina Cavidovnaya verilmiş ШВ-736156 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 18 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Baxşıyev Yusif Kamran oğluna verilmiş A-409555 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Qorçulu kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Qurbanov Zakir Hüseyn oğluna verilmiş B-278789 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə Humanitar Kolleci** tərəfindən 2011-ci ildə Məmmədova Nərgiz Namiq qızına verilmiş AA-001913 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə qızı

**NİGAR ABBASZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ucar Rayon Təhsil Şöbəsinin rəhbərliyi və kollektivi Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə qızı

**NİGAR ABBASZADƏNİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

BDU-nun "Gənc istedadlar" Liseyinin 11a sinfinin rəhbəri Sevinc Əlləzova, şagird və valideynlər liseyin direktoru Arif Bağırova oğlu

**RƏŞİDİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İdrak Liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin Azərbaycan dili və ədəbiyyatı müəllimi Ülkər Əhmədovaya qayınatası

**SEYFƏDDİN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İdrak Liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin Uşaq Birliyinin sədri Məhərrəməli Əlişanova anası

**GÜLƏR MÜTƏLLİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



# Şagirdlərin olimpiadalara hazırlığı yüksək səviyyədədir

## Fuad Qarayev: "Olimpiada bir elm müsabiqəsi olduğundan qiymətləndirmə sağlam, elmi, dürüst, obyektiv yanaşma və müzakirələrin nəticəsi olmalıdır"



**Ruhiyyə DAŞSALAHLI**

Azərbaycanda növbəti - 2019-2020-ci tədris ili üçün respublika fənn olimpiadaları başa çatdı. 2020-ci ilin ilk aylarından start götürən proses, nəhayət, ötən ay yekunlaşdı. Minlərlə şagirdin qatıldığı bu elm mübarizəsinin qalibləri artıq bəllidir. Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinin müdiri Fuad Qarayev "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində 2019-2020-ci tədris ili üçün respublika fənn olimpiadalarının nəticələrindən danışıb.

### Olimpiada hərəkatının pandemiya dövrü

*-2019-2020-ci il üçün Respublika fənn olimpiadaları yekunlaşdı. Pandemiya şəraitində olimpiada?*

-Yanvar ayında birinci, fevral ayında ikinci mərhələsini keçirdiyimiz respublika fənn olimpiadalarını, pandemiyaya baxmayaraq, nəhayət, yekunlaşdırdıq. Final mərhələsini mart ayında nəzərdə tutsaq da, hamıya məlum səbəblərdən təxirə salmışdıq. İyun ayında karantin rejiminin yumşalması ilə son mərhələnin keçirilməsinə qərar verdik. Təbii ki, pandemiya şəraiti nəzərə alındı. Belə ki, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirləri çərçivəsində şagirdlərin sağlamlığı məqsədilə final mərhələsinin iştirakçıları Bakıya gətirilmədi. Onlar olimpiadaya yaşadıqları ərazi üçün müəyyən edilmiş mərkəzlərdə qatıldılar. Olimpiadaların keçirilməsi üçün Bakı, Mingəçevir, Qəbələ, Şirvan, Biləsuvar, Quba, Xaçmaz və Naxçıvan Muxtar Respublikası olmaqla müxtəlif mərkəzlər müəyyənləşdirildi. Mövcud vəziyyətlə əlaqədar olimpiadaların keçirildiyi məkanlar bir gün əvvəl dezinfeksiya edildi, COVID-19-a qarşı bütün qabaqlayıcı tədbirlər görüldü. Şagirdlərə maska və əlcəklər verildi, otaqlara spirtlər qoyuldu. Binaya daxil olan hər kəsin hərarəti ölçüldü. İstənilən mərkəzdə bir sinifdə maksimum 9 şagird əyləşdirildi. Şagirdlər arasında məsafə qorundu. Azərbaycanın bölgələrindən 589, Naxçıvan Muxtar Respublikasından 102 nəfərin iştirak etdiyi final mərhələsi uğurla başa çatdı və nəticələr elan olundu. Düşünürük ki, çətin şəraitə baxmayaraq, respublika fənn olimpiadalarını uğurla başa vurduq.

### Koordinasiyanın nəticəsi şagirdin xeyrinə olur

*- Nəticələr elan olunmazdan öncə olimpiadaçılar münsiflər heyəti ilə görüşdü...*

- Bəli, respublika fənn olimpiadalarının təşkili və keçirilməsi qaydasına əsasən olimpiadadan bir gün sonra şagirdlər münsiflər heyəti ilə görüşərək yazı işinə baxış keçirirlər. Xatırladım ki, qaydalara görə, olimpiada komissiyası yazı işini yoxlayıb qiymətləndirdikdən sonra şagirdlər onlara verilən kodla şəxsi kabinetində öz nəticəsini görə bilir. Bununla bağlı hər hansı sualı, etirazı yaranarsa, onu olimpiada komissiyası ilə müzakirə edə bilirlər. Biz buna "koordinasiya" deyirik. Bu il şagirdlər münsiflər heyəti ilə onlayn görüşdü. Təyin etdiyimiz vaxtda hər şagirdə 10 dəqiqə vaxt verildi. Bu 10 dəqiqəlik görüşlə bağlı deyim ki, şagirdin PDF formatında yazısı ekranda görünür və yazı üzərində müzakirə gedir. Olimpiada ayrı-ayrı günlərdə keçirildiyi üçün münsiflər heyətinin görüşü də fərqli günlərdə baş tutdu. Səhər saat 9-da başlayan proses şagird sayından və müzakirələrin gedişindən asılı olaraq, bəzi fənlər üzrə axşam saat 6-ya, 7-yə qədər uzandı. Ancaq nəticə uğurlu oldu.

*- Görüşün nəticəsi olaraq komissiyanın qərarında müsbət, ya da mənfi dəyişikliyə səbəb olan şagird oldumu?*

- Olimpiadanın çox önəmli hissəsi sayılan koordinasiya ona görə keçirilir ki, obyektivlik qorunsun, şagirdin yazı işlərinin düzgün qiymətləndirilməsi təmin edilsin. Olimpiada bir elm müsabiqəsi olduğundan qiymətləndirmə sağlam, elmi, dürüst, obyektiv yanaşma və müzakirələrin nəticəsi olmalıdır. Şagirdlərlə münsiflər heyətinin görüşü, yazı işlərini birgə müzakirə etmələri məhz obyektiv qiymətləndirməyə xidmət edir. Olimpiada üçün koordinasiya şagirdlərin verilən tapşırığı tələb edilən müddət ərzində həll etməsi qədər önəmlidir. Bu önəmli prosesin nəticəsi əksər hallarda dəyişməsə də, şagirdin öz yazı işini elmi dəlillərlə münsiflər heyəti qarşısında sübut edib balını yüksəltmək şansı daha çoxdur, nəinki balın aşağı salınması. Yəni münsiflər heyətinin qərarı dəyişəcəksə, bu, mütləq şagirdin xeyrinə olur. Birmənalı olaraq deyə bilərəm ki, koordinasiya zamanı şagirdin qiyməti endirilmir. Verilmiş baldan daha aşağı balın verilməsinə icazə vermirik. Komissiya üzvlərinə əvvəlcədən tapşırmışdıq ki, yazı işlərini diqqətlə yoxlasınlar ki, qərar dəyişikliyinə səbəb olacaq faktlar olmasın. Bu il şagirdlərin 98 faizinin yazı işinin qiymətləndirilməsində hər hansı problem olmadı. Ancaq qiymətləndirilməsində dəyişiklik edilənlər də oldu.

### Əvvəlki illərlə müqayisədə nəticələr yaxşıdır

*- Ötən illə müqayisədə builki nəticələrdə fərq varmı? Xüsusən şagirdlərin bilik səviyyəsində yüksəlmə, yaxud əksinə dəyişiklik müşahidə edildimi?*

- Nə qədər qəribə səslənsə də, respublika fənn olimpiadalarının builki nəticələri bir çox fənlərdə əvvəlki illərlə müqayisədə yaxşıdır. Halbuki düşünürdük ki, pandemiya zamanı təqdim edilən tapşırıqların həllində, ya da sualların cavablandırılmasında şagirdlər çətinlik yaşayacaqlar. Yazı işlərindən görünür ki, onların olimpiadalara hazırlığı kifayət qədər yüksəkdir. Ola bilsin ki, karantin rejimində evdə qalmaları onların öz üzərində daha çox çalışmalarına, daha çox tapşırıq yerinə yetirmələrinə səbəb olub. İstər riyaziyyat və fizika, istərsə də humanitar fənlər üzrə şagirdlərin nəticələri daha yaxşıdır. Burada söhbət, sadəcə topladıqları baldan getmir, verilən tapşırıqlara şagirdlərin yanaşmasından, seçdikləri həll üsullarından gedir. Münsiflər heyətinin rəyi belədir ki, bu il şagirdlərin yazı işləri əvvəlki illərlə müqayisədə kifayət qədər yaxşıdır.

### Bu dəfə 8 yox, 10 nəfər oldular

*- Nəinki medallarının hamısının sahibi var, hətta "Birincilərin birincisi" olan olimpiadaçılar bal eyniliyi səbəbindən bu il sayca daha çox oldu, 8 yox, 10 nəfər. Bundan sonra həmişə belə olacaq? Eyni balın müşahidə edilməsi ilk dəfə idi?*

- Bu il riyaziyyat və coğrafiya fənnləri üzrə yuxarı sinif şagirdləri arasında maksimum bal toplayan 2 nəfər vardı. Eyni bal topladıqları üçün onları ayırmadıq və ikisini də mükafatlandırmaq qərarına gəldik. "Birincilərin birincisi" nominasiyasını təyin edərkən məqsədimiz bu idi ki, hər il ən yaxşı şagirdi müəyyənləşdirib onu xüsusi mükafatlandıraq. Bildiyiniz kimi, respublika fənn olimpiadalarında həm aşağı yaş, həm də yuxarı yaş qrupu üzrə iştirak edən şagirdlərimiz var. İndiyədək aşağı yaş qrupunda iştirak edən şagirdlə yuxarı yaş qrupunda iştirak edən şagirdlər arasında balı eyni olanlara rast gəlirdik. Həmişə bu nominasiya üzrə yuxarı yaş qrupundan olan şagirdləri seçmişik. Seçim üstünlüyünü onlara verməyimizin də səbəbi var. Hesab edirik ki, həmin yaş qrupunda suallar daha çətin, proqram daha ağırdır. Üstəlik, onların məzun olacaqlarını nəzərə alırıq. Ancaq onu da qəbul edirik ki, şagird yarışda maksimum bal yığıbsa, bu mükafata layiq görülməsi daha məqsədəuyğundur. Ona görə də təşkilat komitəsi ilə müzakirə edərək "Birincilərin birincisi"nin 8 deyil, 10 nəfər olmasına qərar verdik.

Hər il belə olacağını deyə bilmərəm. Ancaq bunu nəzərə almaq və Qaydalarda dəyişiklik etmək istəyirik. Növbəti illərdə eyni bal toplayanlardan hansının bu nominasiyaya layiq olduğunu müəyyənləşdirmək üçün əvvəlki mərhələlərin nəticələrinə baxıla bilər. Əsas odur ki, növbəti illərdə bu məsələyə dəqiqlik gətiriləcək. Hələlik, bu il üçün verilən qərar bu oldu ki, "Birincilərin birincisi" nominasiyası üzrə mükafatlandırılan şagirdlərin sayı 8 yox, 10 nəfər olsun.

### Şagirdlərin həll yolları vəsaitə çevriləcək

*- Balı eyni olsa da, cavabları, suallara yanaşması ilə də fərqlənə bilərlər, elə deyilmi?*

- Ümumiyyətlə, olimpiadada məsələlərə fərqli yanaşması, qeyri-adi həll üsulu ilə fərqlənən şagirdlər qiymətləndirilir. Hətta yazı işləri qiymətləndirilərkən, xüsusən dəqiq fənlərdə, buna fikir verilir. Məsələn, şagirdə təqdim olunan məsələ üzrə münsiflər heyəti bir neçə həll yolu göstərir. Ancaq bəziləri elə həll yolu seçir ki, münsiflər heyəti çox rahatlıqla şagirdin seçdiyi variantın onların göstərdiyi həmin 3 həll yolundan daha asan, daha rahat, daha yaxşı olduğunu deyə bilir. Məsələlərə qeyri-adi yanaşması olan, fərqli həll üsulu seçən şagirdlərin yazı işlərini sadəcə qiymətləndirmirik, həm də qoruyub saxlayırıq. Gələcəkdə həmin işlərdən ibarət vəsaitin hazırlanması planlaşdırılır.

*- Bu ilin nəticələri əsasında ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul hüququ veriləcək şagirdlərin sayı çoxdurmu?*

- Respublika fənn olimpiadalarının qalibləri Nazirlər Kabinetinin qərarı ilə ali məktəblərə müsabiqədənkənar qəbul olunur. Təbii ki, bu il də həmin qərara əsasən müsabiqədənkənar tələbə adı qazananlar olacaq. Ancaq onlar, sadəcə builki müsabiqədə yüksək nəticə göstərənlər deyil. Respublika fənn olimpiadalarında iştirak edib qalib ola bilməyən şagirdimiz ötənilki olimpiadanın qaliblərindəndirsə, bu il Dövlət İmtahan Mərkəzinə müraciət edərək imtahan vermədən tələbə statusu qazanacaq. Hazırda onların sayı bizə məlum deyil. Bilirsiniz ki, Nazirlər Kabinetinin qərarına əsasən, respublika fənn olimpiadaları qaliblərinə müəyyən ixtisaslar üzrə müsabiqədənkənar qəbul olunmaq şansı verilir. Məsələn, tarix fənni üzrə respublika fənn olimpiadasının qalibi hüquqşünaslıq ixtisası üzrə təhsil ala bilməyəcək. Odur ki, təhsilini müəyyən edilmiş həmin ixtisaslar üzrə davam etdirmək istəməyənlər yenidən imtahan verməlidirlər. Neçə nəfərin bu il müsabiqədənkənar ali məktəb tələbəsi olmaq imkanından yararlanacağını deyə bilməsək də, bunun üçün çoxsaylı müraciətlər olduğunu nəzərinizə çatdırmaq istəyirəm. Bu stimullaşdırıcı fürsətdən yararlanacaq məktəblilərimizin sayını bir neçə ay sonra biləcəyik. Builki olimpiadada iştirak edən XI sinif şagirdlərinin sayı 100-dən çoxdur. Ancaq məzunların hamısı bu şansından istifadə etmir.

*- Bəs, daha çox hansı fənn üzrə qaliblər müsabiqədənkənar qəbul şansından yararlanır?*

- Daha çox informatika və riyaziyyat üzrə olimpiada qalibləri kompüter mühəndisliyi ixtisasını seçmək imkanına malik olduqları üçün bu fürsəti dəyərləndirirlər. Ancaq əvvəlki illərdə Azərbaycan dili fənnindən respublika fənn olimpiadası qalibi kimi ixtisas seçimində Azərbaycan dili müəllimliyini seçənlər də olub.

*- Mükafatlandırma mərasiminin tezliklə baş tutacağı gözlənilmir. Qalib məktəblilərin mükafatlarını onlara necə təqdim etməyi düşünürsünüz?*

- Mövcud vəziyyətlə əlaqədar təqdimetmə mərasimi keçirmək düşünülmür. Karantin rejimi bitdikdən və normallaşma başladıqdan sonra medal, diplom və hədiyyələrini qaliblərimizə çatdıracağıq. Ali məktəblərə hazırlaşan şagirdlərə olimpiada qalibi olması haqqında lazım olan sənədlər təhsil müəssisələrinə, təhsil şöbələrinə Təhsil nazirinin müvafiq əmri ilə birgə göndərilib. Odur ki, həmin sənədləri məktəblərindən və ya təhsil şöbələrinə müraciət edərək əldə edə bilərlər.

# Dünya üzrə 100 layihədən biri




**Oruc MUSTAFAYEV**

Son illər məktəblilərimizn yerli və bir sıra beynəlxalq layihə olimpiadalarında uğurlu çıxışları ənənəyə çevrilib. Bu dəfə də onların növbəti uğur sorağını aldıq. Akademik Zərifə Əliyeva adına liseyin XI sinif şagirdi Zəhra Qasımzadə, S.C.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasının XI sinif şagirdi Züleyxa Kişiyeva, Türkiyənin Orta Doğu Texnik və Sabançı universitetlərinin birinci kurs tələbələri Nofəl Qədimli və Ülvi Musayevin birgə inkişaf etdirdikləri Click_Energy adlı (klavişlərdən enerji alan klaviatura) layihəsi dünyanın ən böyük olimpiadalarından olan GENIUS Olimpiadasının biznes kateqoriyası üzrə finala vəsiqə qazanaraq, hər biri 20000 dollar dəyərində mükafata (universitetdə təhsil təqaüdünə) layiq görülüb.

*Akademik Zərifə Əliyeva adına liseyin builki məzunu Zəhra Qasımzadə "Azərbaycan müəllimi"nə layihə və beynəlxalq olimpiada barədə məlumat verdi:*

- VIII sinifdən bir neçə layihə üzərində işləmişəm. Xüsusi beynəlxalq tədbirlərdə və müsabiqələrdə iştirak etmişəm. 2018-ci ilin sonlarında dostlarım ilə birgə layihələr haqda müzakirə apararkən internetdən araşdırma etdik və gördük ki, belə bir innovativliyi hələ heç kəs etməyib. Düşündük ki, niyə də yox? Əvvəlki təcrübələrimizə əsaslanaraq fikrimizi Züleyxa və Nofəl ilə birgə layihələşdirdik və bir neçə yerə müraciət etməyə başladıq. Qeyd etmək istərdim ki, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu bizə inkubasiya dəstəyi göstərdi. Ölkə üzrə bəzi uğurlar qazandıqdan sonra qlobal proqramlar və müsabiqələri araşdırdıq, tapdıq və müraciət etdik. Pozitiv rəylər aldıq və çoxlu nailiyyətlər, uğurlar, təcrübələr qazandıq. Layihəmizi prototip mərhələsində bacardığımız qədər təkmilləşdirməklə investisiya qazanıb tam satışını həyata keçirmək istəyirik.

Zəhra Qasımzadənin sözlərinə görə, "Click Energy" layihəsinin əsas məqsədi alternativ enerji ilə öz özünü təmin edə bilən texnologiyaları bazara çıxartmaqdır. Hazırda insanların ekoloji baxımdan təmiz, asan əldə edilən, həmçinin rahat istifadə oluna bilən texnologiyalara ehtiyacı var. "Click Energy" layihəsi simsiz texnologiya üzərində qurulmuş və özü- özünü enerji ilə təmin edə bilən məhsul təklif edir. Belə ki, müştərilər sadəcə klavişlərə basmaqla lazımi enerjini əldə edəcəklər və batareyanı dəyişməyə ehtiyac qalmayacaq. Bundan əlavə, layihə üzrə təklif edilən məhsullar kifayət qədər rahat, kompaktdır.

GENIUS Olimpiadası ətraf mühit məsələlərinə dair qlobal bir anlayışı və təməl elm, sənət, yaradıcı yazı, mühəndislik, dizayn və biznes inkişafı ilə davamlılığa nail olmağı təşviq edir. GENIUS olimpiadası orta məktəb şagirdləri üçün vətəndaşlar, liderlər, elm adamları, rəssamlar, yazıçılar, mühəndislər və gələcəyin siyasət aparıcıları olmaq məqsədilə kömək edəcək bilik və bacarıqları aşılamaq üçün çətinliklər və fürsətlər təqdim edir.

GENIUS Olimpiadası "TERRA Science and Education" və "Rochester Institute of Technology" təşkilatları tərəfindən hər il keçirlir. Şagirdlərimiz eyniadlı layihə ilə bundan öncə #upNEXT_Startup_Competition adlı yarışmasında da 3000 dollar həcmində mükafat qazanıblar. Bundan başqa, #Elevate_the_Future_Cloud9 adlı sahibkarlıq və dünyanın ən böyük yaşıl biznes ideyaları yarışmasında (ClimateLaunchpad Azerbaijan) finala vəsiqə əldə ediblər.

Gənc ixtiraçıların "Click Energy" layihəsi 2019-cu ildə dünya üzrə ən yaxşı 100 layihədən biri olub. Layihə bir sıra ölkələrdə keçirilən beynəlxalq müsabiqələrdə yüksək yerlərə layiq görülüb.

Qeyd edək ki, akademik Zərifə Əliyeva adına liseyin builki məzunu olan Zəhra Qasımzadə artıq Türkiyənin Özyeğin Universitetinin biznesin idarəolunması ixtisasına (ingilis sektoru) 85 faiz təqaüd qazanıb.